**Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin görüşü Cenevrədə olacaq**



Bax 2

**Mərkəzi Seçki Komissiyası Milli Məclisə seçkilərlə əlaqədar seçki bülletenlərinin çapına başlayıb**



Bax 4

**Litvalı jurnalist: Qanlı Yanvar kimi ağrılı mövzuya məsuliyyətsiz şərhlər vermək təhlükəlidir**




Bax 4




# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 015 (5980) 28 yanvar 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# İlham Əliyev: "Bizi narahat edən məsələlər var - regionumuzda gərginliyin artması"

*Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyanın "Rossiya-24" televiziya kanalına müsahibəsi*

Bax 2




Bax 4



## Moskvada növbəti erməni təxribatının qarşısı alınıb

***Soydaşlarımız Rusiya Federasiyası ərazisində millətlərarası münaqişəni qızışdırmaq və separatçılıq ideyalarını təbliğ etmək məqsədilə çəkilmiş erməni filminin Moskvada nümayişinin təxirə salınmasına nail olublar.***

## "İnanıram ki, Azərbaycan xalqı parlament seçkilərində də doğru seçim edəcək"




"Azərbaycan xalqı fevralın 9-da da müdriklik nümayiş etdirərək öz iradəsini ifadə edəcək." Bunu secki-2020.az saytına açıqlamasında Rusiya Prezidentinin Beynəlxalq mədəni əməkdaşlıq üzrə...

Bax 2

## Nikol Paşinyanın reytinqi kifayət qədər aşağı düşüb



*Son vaxtlar erməni KİV-lərində baş nazir N.Paşinyan hökumətinin mövqelərinin zəiflədiyini göstərən yazılar dərc olunur. Ermənistanda siyasi elita daxilində rəqabətin güclənməsi müşahidə olunur. 2018-ci illə müqayisədə baş nazir Nikol Paşinyanın reytinqi kifayət qədər aşağı düşüb...*

Bax 6

## Kobi Brayantın həlak olduğu helikopter qəzasının yeni detalları açıqlandı

Bax 16




**DİN və Baş Prokurorluq: Zamin Salayevin şərəf və ləyaqəti alçaldan böhtanlar yayması onun neqativ həyat təcrübəsinin təzahürüdür**



Bax 13

**AZAL Bakıdan Pekinə aviareysləri müvəqqəti dayandırır**




Bax 13

**Sergen Yalçın "Beşiktaş"ın baş məşqçisi oldu**



Bax 16

# İlham Əliyev: "Bizi narahat edən məsələlər var - regionumuzda gərginliyin artması"

*Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyanın "Rossiya-24" televiziya kanalına müsahibəsi*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Dünya İqtisadi Forumu çərçivəsində Davosda Rusiyanın "Rossiya-24" televiziya kanalına müsahibə verib. "Rossiya-1" və "Rossiya-24" kanalları dövlətimizin başçısının müsahibəsini yayımlayıb.

AZƏRTAC "Rossiya-24" televiziya kanalında yayımlanan müsahibəni təqdim edir.

Aparıcı: "OPEK+" bu gün neftin ədalətli qiymətini müəyyənləşdirməyə kömək edən çoxtərəfli əməkdaşlığın uğurlu formatıdır. Neft bazarının iştirakçıları arasındakı sövdələşmə öz səmərəsini göstərdi. Onu uzatmaq gərəkdir. Bu fikirləri kanalımıza müsahibədə Davos Forumunun kuluarlarında Azərbaycan Prezidenti İlham Əliyev söyləyib.




***-Yaxın Şərqdə müşahidə olunan gərginlik nəzərə alınmaqla bu il neftin qiymətinin hansı dinamikasını gözləmək olar?***

-Proqnoz vermək çətindir. Düşünürəm ki, qiymətlərin bugünkü səviyyəsi həm istehsalçıları, həm də istehlakçıları qane edir. Azərbaycana gəldikdə, bu il bizim büdcəmizdə neftin bir barrelinin qiyməti 55 dollar nəzərdə tutulub. Lakin indi qiymət xeyli yüksəkdir. Buna görə də düşünürəm ki, əgər hər hansı forsmajor vəziyyət yaranmasa, qiymət 55-65 dollar diapazonunda qalacaq. Üstəlik, "OPEC+" formatı çox səmərəlidir və Azərbaycan bu formatın işində fəal iştirak edir. Biz öz üzərimizə götürdüyümüz öhdəliklərlə əlaqədar hasilatı azaldırıq və mahiyyət etibarilə bu gün OPEC-ə daxil olmayan ölkələr də özlərini OPEC üzvləri kimi aparırlar. Buna görə də "OPEC+" çoxtərəfli əməkdaşlığın olduqca uğurlu formatıdır və bizim fikrimizcə, mahiyyət etibarilə, bu gün neftin qiymətinin ədalətli olduğunu müəyyənləşdirib.

***-Sizin fikrinizcə, "OPEK+" sazişinin müddətini uzatmaq lazımdırmı?***

-Əlbəttə, bu məsələ ən yaxın vaxtlarda müzakirə ediləcək. Lakin hesab edirəm ki, konkret nəticələr gördüyümüzü nəzərə alaraq bunun müddətinin uzadılması, əlbəttə, məqsədəuyğundur. Çünki müddət uzadılmasa, bazarın necə reaksiya verəcəyini bilmirik, yenidən müxtəlif spekulyativ meyillər yarana bilər. Buna görə hesab edirəm ki, müddətin uzadılmasının əhəmiyyəti var.

***-Sizcə, bu gün dünyada çoxqütblülük əlamətləri varmı?***

-Şübhəsiz, bu gün dünya məhz çoxqütblü dünya kimi inkişaf edir. Bir neçə güc mərkəzi var. Əlbəttə, bizi narahat edən məsələlər var - regionumuzda gərginliyin artması. Lakin biz müsbət dinamikanı da görürük, əvvəllər bu cür sıx qarşılıqlı fəaliyyəti olmayan ölkələr bu gün demək olar ki, müttəfiqlər kimi hərəkət edir və regional sabitliyə böyük töhfə verirlər. Buna görə də çoxqütblü dünya artıq reallıqdır. Düşünürəm ki, bu meyillər getdikcə daha da möhkəmlənəcək. Bu, müsbət haldır, çünki bu, dünyada sabitliyə zəmanətdir.

***-Hər halda, dünyada ölkələrdən birinin daha çox birqütblü dünyaya meyil etməsi əlaməti yoxdurmu?***

-Bilirsiniz, iri ölkələrin həmişə öz hüdudlarından kənarda maraqları olur və hər ölkə özü üçün daha yaxşı şəraitə nail olmaq, öz təsir dairəsini genişləndirmək istəyir. Burada təzə heç nə yoxdur. Biz bunu əsrlərboyu müşahidə edirik, sadəcə, müxtəlif intensivlik dərəcəsi ilə. Buna görə məsələ bunda deyil, bugünkü dünya nizamının konstruksiyası, o cümlədən beynəlxalq münasibətlərin konstruksiyası çoxqütblülüyü nəzərdə tutur. BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinin tərkibinə baxsaq, bu, artıq dünyanın çoxqütblülüyünün əksidir. Daimi üzvlərdən birinin razılığı olmadan heç bir qərar qəbul edilə bilməz. Buna görə də düşünürəm ki, ölkələr özləri üçün birqütblülüyü təmin etməyə çalışmamalı, əksinə, hamı üçün sərfəli olan əməkdaşlıq elementləri tapmalıdırlar.

***-Azərbaycan Belarus Respublikasını neftlə təchiz edəcəkmi?***

-Bilmirəm. Bu sual mənə deyil, yəqin ki, Neft Şirkətinə aiddir. Bir neçə il bundan əvvəl biz Belarusu neftlə təchiz edirdik və sonradan Belarus tərəfinin təşəbbüsü ilə bu proses dayandırılmışdır. Əgər yenidən belə ehtiyac yaransa, Azərbaycan Dövlət Neft Şirkəti bu məsələni nəzərdən keçirəcək. Bu gün "SOCAR Traiding" şirkəti ən iri treydinq şirkətlərindən biridir və onun satdığı neftin çox hissəsi Azərbaycanda hasil edilməyən neftdir. Buna görə, sırf texniki baxımdan Azərbaycan şirkəti nefti istənilən yerə tədarük edə bilər. Lakin qiymət məsələsi, logistika məsələsi, kontrakt öhdəlikləri ilə bağlı məsələ - bütün bunlar müvafiq şirkətlər arasında müzakirə edilməlidir.

***-Çox sağ olun.***

-Sağ olun.

## Mixail Şvıdkoy: "İnanıram ki, Azərbaycan xalqı parlament seçkilərində də doğru seçim edəcək"




"Azərbaycan xalqı fevralın 9-da da müdriklik nümayiş etdirərək öz iradəsini ifadə edəcək." Bunu secki-2020.az saytına açıqlamasında Rusiya Prezidentinin Beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy deyib.

O, Azərbaycanda iqtisadi inkişaf, insanların rifah halının daha da yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışaraq bildirib: "Bütün bunların fonunda seçkilərin normal şəraitdə keçəcəyinə əminəm. Aydındır ki, seçki rəqabət və mübarizə deməkdir. İnanıram ki, Azərbaycan xalqı 9 fevral parlament seçkilərində də doğru seçim edəcək".

## Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin görüşü Cenevrədə olacaq

Bu il yanvarın 29-30-da İsveçrənin Cenevrə şəhərində Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarovun ATƏT-in Minsk qrupunun həmsədrləri və Ermənistanın Xarici İşlər naziri Zöhrab Mnatsakanyan ilə görüşünün keçirilməsi nəzərdə tutulur. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.



## Exit-poll keçirmək istəyən təşkilatların adları məlum olub



Azərbaycanda fevralın 9-a təyin edilmiş parlament seçkilərində exit-poll keçirmək istəyən təşkilatların adları məlum olub. SİA-nın məlumatına görə, dünən Mərkəzi Seçki Komissiyasında exit-poll keçirmək istəyən təşkilatların müraciətlərinə baxılıb. Əvvəlcə Əmək Hüquqlarının Müdafiə Liqasının ("AJF&Associates İnc." təşkilatı (Amerika Birləşmiş Ştatları) ilə birgə) müraciətinə baxılıb.

MSK sədrinin müavini Rövt Qasımov bildirib ki, bu təşkilatlar Azərbaycanda əvvəki seçkilərdə də exit-poll keçirib və etibarlı nəticələr əldə edib. O qeyd edib ki, təşkilat 1053 seçki məntəqələrində seçicilərin rəyini öyrənəcəklər. R.Qasımov vurğulayıb ki, 2106 müsahibəçinin, 47 supervayzerin bu prosesə cəlb olunması nəzərdə tutulur. Müraciət səsə qoyularaq qəbul edilib.

# Enerji siyasətində təkmilləşmə və müasirləşmə



## Prezident İlham Əliyev: "Azərbaycan enerji təminatı istiqamətində dünya miqyasında aparıcı ölkələrdən birinə çevrilibdir"

***Təzə qədəm qoyduğumuz 2020-ci ilin ilk günündən həyata keçirilən uğurlu işlər, bir daha onu sübut edir ki, bu ilimiz də uğurlu və yaddaqalan olacaq. Çünki əsas hədəf Azərbaycanda sosial dövlət modeli qurmaqla yanaşı, hər bir vətəndaşın qayğısına qalmaq, onların ehtiyaclarını maksimum səviyyədə ödəməkdir. Məhz bu səbəbdən də bütün sahələrdə dəyişikliklər olduğu kimi enerji sahəsində də buna ehtiyac var. Çünki enerji təhlükəsizliyi dövlətlərin milli təhlükəsizliyinin struktur elementlərindən biri olaraq həlledici yerə və rola malikdir.***

Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 7-də Vüqar Əhmədovu "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar qəbul edərkən bildirib ki, enerji təminatı hər bir ölkə üçün strateji sahədir: "Bu, çox məsuliyyətli vəzifədir və enerji təminatı hər bir ölkə üçün strateji sahədir. Son illər ərzində, ölkəmizdə bu sahədə çox böyük işlər görülübdür. Regionların sosial-iqtisadi inkişafına dair 2004-cü ildə qəbul edilmiş birinci Dövlət Proqramı çərçivəsində enerji güclərinin yaradılması nəzərdə tutulurdu. Artıq biz buna tam nail olduq. Bu gün bizim, təqribən, 1000 meqavatlıq əlavə enerji güclərimiz var ki, bu güclər



həm ehtiyat təşkil edir, həm də ixrac potensialımızı genişləndirir. Keçən il ölkəmiz elektrik enerjisinin ixracından, təqribən, 60 milyon dollar civarında vəsait əldə edibdir".

### "Biz son 15 il ərzində, təqribən, 3000 meqavata yaxın yeni generasiya gücləri yaratdıq"

Dövlət başçısı son 15 ildə enerji sahəsində dünya miqyasında aparıcı ölkələr sırasında olduğunu bildirib: "Biz son 15 il ərzində, təqribən, 3000 meqavata yaxın yeni generasiya gücləri yaratdıq, bir çox elektrik stansiyaları inşa edildi və beləliklə, Azərbaycan bu istiqamətdə dünya miqyasında aparıcı ölkələrin birinə çevrilib".

Prezident İlham Əliyev, eyni zamanda, paylayıcı xətlərin yenidən qurulmasına və çəkilməsinə də böyük diqqət göstərildiyini deyib: "Əlbəttə ki, paylayıcı şəbəkənin müasir standartlara cavab verməsi gündəlikdə duran əsas məsələlərdən biridir. Vaxt var idi ki, ölkəmizin enerji təminatı özəl qurumların əlində idi və bu praktika özünü doğrultmadı. Əksinə, bizim üçün böyük problemlər yaratmışdır. İndi bəziləri unudub, vaxtilə elektrik enerjisinin qıtlığına görə gecə saatlarında televiziya kanalları söndürülürdü. Bakının enerji təminatı tamamilə bərbad vəziyyətə düşmüşdü. Bakının enerji təminatını inhisara götürmüş "Barmek" şirkəti enerji təsərrüfatını tamamilə sıradan çıxarmışdı. İndi bir çoxları o dövrü unudub. Mən bunu yaxşı xatırlayıram ki, məhz mənim göstərişimlə və Sərəncamımla xarici iş adamlarının yarıtmaz fəaliyyəti geniş təhlil edildi. Bakının enerji təminatı yenə dövlətə qaytarıldı və "Azərişıq" yaradıldı. "Azərişıq" Səhmdar Cəmiyyətinin adını da mən vermişdim. O gündən bu günə qədər dövlət bu sahəyə böyük vəsait ayıraraq, ciddi dönüş yarada bildi. Bu gün Azərbaycanda enerji dayanıqlılığı tam təmin edilir".

### "Bu qədər səhlənkarlıq, bu qədər məsuliyyətsizlik olarmı?"

Dövlət başçısı, həmçinin, bütün müsbət məqamlara baxmayaraq, böyük çatışmazlıqların, böyük qüsurların olduğunu da vurğulayıb: "Əgər bunlar olmasaydı, 2018-ci ildə biz o qəza ilə üz-üzə qalmazdıq. Qəzadan sonra aparılan təhlil işləri göstərdi ki, bu, sırf səhlənkarlıq, məsuliyyətsizlik nəticəsində baş vermişdir. Mənə şəkillərlə, sübutlarla böyük məruzə edildi, bizim Mingəçevir İstilik Elektrik Stansiyası necə bərbad gündə idi. Adam o şəkillərə baxanda, dəhşətə gəlirdi. Bu qədər səhlənkarlıq, bu qədər məsuliyyətsizlik olarmı? Ona görə "Azərenerji"nin rəhbərliyi tamamilə dəyişdirildi. Mingəçevir İstilik Elektrik Stansiyasının 5 bloku əsaslı təmir edildi, demək olar ki, yenidən quruldu və itirilmiş güclər bərpa olundu. Biz, təqribən, 400 meqavatlıq itirilmiş gücləri bərpa etdik. Yəni bizim mövcud elektrik stansiyaları, məhz məsuliyyətsizlik və qeyri-peşəkar hərəkətlərə görə, o gücləri itirmişdi. Biz yeni stansiya tikmədən, təmir işləri nəticəsində 400 meqavat gücü bərpa etdik. Mingəçevir İstilik Elektrik Stansiyasının qalan 3 blokunda 2020-ci ildə yenidənqurma işləri aparılacaq və əlavə enerji, generasiya gücü əldə ediləcək".

### "Hazırda özəl şirkətlər, xarici şirkətlər bu sahəyə böyük maraq göstərirlər, 100 milyonlarla dollar səviyyəsində investisiya yatırmaq istəyirlər və biz bunu yüksək qiymətləndiririk"

Dövlət başçısı ölkəmizdə bərpaolunan enerji növlərindən olan külək elektrik stansiyasına özəl və xarici şirkətlərin maraq göstərdiyini də dedi: "Eyni zamanda, biz indi bərpaolunan enerji növlərinin yaradılması ilə ciddi məşğuluq. Artıq 50 meqavatlıq külək elektrik stansiyası fəaliyyət göstərir. Hazırda özəl şirkətlər və xarici şirkətlər bu sahəyə böyük maraq göstərirlər, 100 milyonlarla dollar səviyyəsində investisiya yatırmaq istəyirlər və biz bunu yüksək qiymətləndiririk. Beləliklə, növbəti illərdə bizim artan tələbatımızı ödəmək üçün həm yeni stansiyalar qurulmalıdır, həm də elektrik enerjisini təmin edən mövcud qurğular təftiş edilməlidir, yeni yarımstansiyalar inşa olunmalıdır, təmir edilməlidir. Biz bütün bu işləri görürük və ardıcıl şəkildə görəcəyik. "Azərişıq" da öz işində ən müasir prinsipləri rəhbər tutmalıdır. Bizim bütün enerji təsərrüfatımız yüksək standartlara cavab verməlidir. Generasiyadan başlamış son nöqtəyə - vətəndaşların mənzilinə qədər elektrik enerjisi dayanıqlı şəkildə təmin edilməlidir".

Dövlət başçısı elektrik enerjisi sahəsində əldə olunan nailiyyətlərə Davos Ümumdünya İqtisadi Forumu çox yüksək qiymət verdiyini bildirib: "Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumu bu sahədə görülmüş işlərə çox yüksək qiymət veribdir. Elektrik enerjisinin əlçatanlıq əmsalına görə Davos Forumu Azərbaycanı MDB məkanında birinci yerə layiq görüb, dünya miqyasında isə ikinci yerdəyik. Biz bu göstəriciyə görə ən inkişaf etmiş ölkələri qabaqlamışıq. Elektrik enerjisinin istehsalının və paylanmasının əsas məqsədi onun müəssisəyə və vətəndaşa çatdırılmasıdır. Əlçatanlıq bu deməkdir. Yəni ki, insanların, müəssisələrin enerjiyə əli çatır və bu



əmsala görə biz dünyada ikinci yerdəyik. Bax, budur bizim gördüyümüz işlərin nəticəsi. Ancaq biz əldə edilmiş uğurlarla kifayətlənə bilmərik. Həm "Azərenerji", həm də "Azərişıq" qarşısında çox böyük vəzifələr qoyulub. Əminəm ki, bu vəzifələr ardıcıllıqla icra ediləcək və beləliklə, elektrik enerjisi ilə təminat daim yüksək səviyyədə olacaqdır".

Bir sözlə, qarşıda mühüm vəzifələr dayandığını daim vurğulayan Prezident İlham Əliyev dövlətin və xalqın qarşılıqlı dəstəyi ilə onların layiqincə yerinə yetiriləcəyinə haqlı olaraq əmindir.

***RƏFİQƏ KAMALQIZI***

# Mərkəzi Seçki Komissiyası Milli Məclisə seçkilərlə əlaqədar seçki bülletenlərinin çapına başlayıb

***Mərkəzi Seçki Komissiyası 2020-ci il fevralın 9-da Milli Məclisə keçiriləcək seçkilərlə əlaqədar seçki bülletenlərinin çapına başlayıb. AZƏRTAC xəbər verir ki, bu məqsədlə Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov və Komissiya üzvləri yanvarın 27-də Milli Məclisin Mətbəəsinə baxış keçirərək, çap prosesinin gedişi və mətbəədə yaradılan şəraitlə tanış olublar.***





Tədbirdə sədr Məzahir Pənahov seçicilərimizin konstitusion hüquqlarından azad və sərbəst şəkildə istifadə etmələri üçün böyük əhəmiyyət kəsb edən bülletenlərin Seçki Məcəlləsində nəzərdə tutulan vaxtda və qaydada hazırlanıb çap edilməsi, eləcə də aşağı seçki komissiyalarına verilməsi üçün qanunvericiliyin tələblərinə dəqiqliklə riayət olunmasının zəruriliyini diqqətə çatdırıb və tövsiyələrini verib.

Milli Məclisə seçkilərin iştirakçısı olan bütün maraqlı subyektlər, beynəlxalq təşkilatlar, seçki müşahidə missiyaları və kütləvi informasiya vasitələri üçün istisnasız açıq və şəffaf olan tədbir çərçivəsində Mərkəzi Seçki Komissiyasının sədri media mənsubları üçün brifinq keçirərək, seçkilərin azad və ədalətli keçirilməsi istiqamətində gerçəkləşdirilən layihələr, həmçinin son hazırlıq işləri barədə ətraflı məlumat verib və jurnalistlərin suallarını cavablandırıb.

Sədr bildirib ki, Milli Məclisə seçkilərlə əlaqədar seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydasına dair tələblər Komissiyanın qərarına əsasən müəyyən olunub və 5 387 600 (beş milyon üç yüz səksən yeddi min altı yüz) seçki bülleteninin çap olunması nəzərdə tutulub. Bülletenlər çap olunduqca, Seçki Məcəlləsinin tələblərinə uyğun şəkildə Mərkəzi Seçki Komissiyasından dairə seçki komissiyalarına, oradan isə məntəqə seçki komissiyalarına veriləcək. Qeyd etmək lazımdır ki, seçki bülletenlərinin çap prosesinin mühafizəsi Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti tərəfindən həyata keçirilir.

# Mübariz Qurbanlı "GəncLİK" proqramının iştirakçıları ilə görüşüb

***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri (DQİDK) Mübariz Qurbanlı "GəncLİK" (Gənc Liderlərin İnkişafı Konsepsiyası) proqramının iştirakçıları ilə görüşüb. Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, proqram iştirakçılarını salamlayan Mübariz Qurbanlı Prezident İlham Əliyev tərəfindən aparılan gənclər siyasətinin önəminə toxunaraq, ölkəmizdə gənclərin təhsili, işlə təmin olunması, inkişafı, dünyaya inteqrasiya etməsi, eyni zamanda, milli dəyərlərə malik vətəndaş kimi tərbiyə almaları istiqamətində mühüm işlərin görüldüyünü bildirib.***



Daha sonra DQİDK sədri Komitənin fəaliyyət istiqamətləri, Azərbaycanda mövcud olan dini durum, dinlərin mahiyyəti və prinsipləri haqqında ətraflı məlumat verib. Bildirib ki, dünyəvi dövlət olan Azərbaycanda dövlət-din münasibətləri qanunla tənzimlənir. Ölkəmizdə bütün etnik qrupların, dini konfessiya nümayəndələrinin öz dillərini, dinlərini, mədəniyyət və adət-ənənələrini qoruyub saxlaması, inkişaf etdirməsi üçün hər cür şərait mövcuddur. Gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayan DQİDK sədri sonda onları maraqlandıran sualları cavablandırıb.

# Moskvada növbəti erməni təxribatının qarşısı alınıb

***Soydaşlarımız Rusiya Federasiyası ərazisində millətlərarası münaqişəni qızışdırmaq və separatçılıq ideyalarını təbliğ etmək məqsədilə çəkilmiş erməni filminin Moskvada nümayişinin təxirə salınmasına nail olublar.***

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, yanvarın 26-da Rusiya paytaxtının "Pobeda" kinoteatrında nümayişi nəzərdə tutulmuş "Aran - mistik ölkə" adlı bədii-sənədli filmin təqdimatı təxirə salınıb. Filmdə Azərbaycanın əzəli torpaqları olan Dağlıq Qarabağ və ona bitişik yeddi rayonun "tarixi Ermənistan" torpağı olduğu iddia edilib.



Filmin nümayişinə kəskin etiraz bildirən Moskva Azərbaycanlıları İcmasının sədri Şamil Tağıyev şəhər hökumətinin mədəniyyət departamentinə müraciət edib. Erməni separatçılarının məkrli niyyətlərini diqqətə çatdıran icma sədri filmin göstərilməsindən imtina etməyə çağırıb və xəbərdarlıq edib ki, əks halda, Rusiyanın Xarici İşlər Nazirliyinə və müvafiq dövlət orqanlarına müraciət göndəriləcək. Qeyd edək ki, bundan əvvəl Qazaxıstanda erməni təxribatının qarşısı alınmışdı. Azərbaycanın Qazaxıstandakı səfirliyinin etirazı nəticəsində qardaş ölkədə yalançı faktlara əsaslanan "Qərbi Ermənistan, itirilmiş vətən" adlı erməni filminin nümayişindən imtina edilib.



# Strasburqda AŞPA-nın qış sessiyası başlayıb

***Yanvarın 27-də Strasburqda Avropa Şurası Parlament Assambleyasının (AŞPA) qış sessiyası başlayıb. AZƏRTAC xəbər verir ki, sessiyada Milli Məclisin AŞPA-dakı daimi nümayəndə heyətinin rəhbəri, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovun başçılıq etdiyi nümayəndə heyəti iştirak edir. Nümayəndə heyətinə deputatlardan Sevinc Fətəliyeva, Sahibə Qafarova, Rafael Hüseynov, Asim Mollazadə, Sabir Hacıyev və Naqif Həmzəyev daxildir.***

Sessiyada əvvəlcə AŞPA-nın yeni prezidenti seçiləcək. Qurumun prezidentliyinə bir namizəd var və o, Belçikadan olan deputat Hendrik Daemsdir. Qış sessiyası çərçivəsində Moldova və Gürcüstanın prezidentlərinin, eləcə də Gürcüstanın Xarici İşlər nazirinin, Avropa Şurası Nazirlər Komitəsinin sədrinin və baş katibinin çıxışları gözlənilir.

Sessiyada "Liviya və Orta Şərqdə son inkişaflar: Avropa üçün hansı nəticələr?" və "Miqrasiya və Brexit-in nəticələri" mövzuları, eləcə də qurumun Nizamnaməsindəki öhdəliyin üzv dövlətlər tərəfindən ciddi pozduğu hallarda Nazirlər Kabineti və Assambleya arasında birgə əlavə proseduralarla bağlı olacaq.

Parlamentarilər media azadlığı və jurnalistlərin təhlükəsizliyinə təhdidlərə, eləcə də iş yerlərində dini azadlığın müdafiəsinə dair müzakirələr aparacaqlar. Assambleyada miqrant alveri, qaçqın və miqrant uşaqların oğurlanması, orqan transplantasiyası və alveri kimi mövzular ətrafında birgə debatlar təşkil ediləcək. Azərbaycan deputatları müzakirələrdə çıxış edəcək, gündəlikdəki məsələlərə münasibət bildirəcəklər. Sessiya çərçivəsində yanvarın 28-də Azərbaycan nümayəndə heyətinin təşkilatçılığı ilə 20 Yanvar faciəsinin 30-cu ildönümünə həsr olunmuş tədbir keçiriləcək.

# Litvalı jurnalist: Qanlı Yanvar kimi ağrılı mövzuya məsuliyyətsiz şərhlər vermək təhlükəlidir

***Litvanın "slaptai.lt" internet-portalında 20 Yanvar faciəsindən bəhs edən "Tarixçi Alqis Kasperaviçyus nəyi demədi" ("Çeqo ne skazal istorik Alğqis Kasperaviçös") başlıqlı məqalə dərc olunub.***



slaptai.lt
Vilniaus Metro www.vilniusmetro.lt
Ирма Ажуоле. Чего не сказал историк Альгис Касперавичюс
Отзыв на публикацию д-ра Альгиса Касперавичюса «Похожие, но разные январи. Баку 1990, Вильнюс 1991» (lrytas.lt, 2020-01-13)
DRAUGAS
FINANSŲ BIURAS
VILNIAUS TRANZITAS
MORIS
NIT

AZƏRTAC Diasporla İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətinə istinadla bildirir ki, tanınmış litvalı jurnalist İrma Ajuole məqaləsində tarixçi Alqis Kasperaviçyusun 30 il əvvəl Bakıda baş vermiş faciəli hadisələr barədə qərəzli və həqiqətdən kənar "Oxşar, lakin fərqli Yanvar. Bakı 1990, Vilnüs 1991" (Poxojie, no raznıe ənvari. Baku 1990, Vilğnös 1991) adlı şərhinə etirazını bildirib. Vurğulayıb ki, Algis Kasperaviçyus 20 Yanvar faciəsi ilə Sumqayıt hadisələri arasında qərəzli və yanlış müqayisələr apararaq, cəmiyyəti növbəti erməni yalanı ilə aldatmağa cəhd edib.

Müəllif qeyd edib ki, tarixçinin 1990-cı ildə azərbaycanlıların sıxışdırdığı ermənilər müdafiə etmək üçün sovet ordusunun Bakıya yeridildiyi kimi söylədiyi cəfəng fikir heyrət doğurur. Çünki bu, zorakılığın bəraəti üçün köhnə Kreml nağılının təkrar olunmasından başqa bir şey deyil.

İ.Ajuole vurğulayıb ki, tarixçilər Ermənistan və Dağlıq Qarabağdan əvvəlcə azərbaycanlıların qovulduğunu, azərbaycanlıların erməni torpaqlarına təcavüz etmədiyi, ermənilərin isə Dağlıq Qarabağa iddia etdiyi kimi faktlar haqqında susurlar: "...orada əzəldən azərbaycanlıların da yaşadığını əlavə etməyi unudurlar. Millətlərarası ədavətdən və onu qızışdıranlardan danışarkən düşünməyə dəyər ki, nə üçün hazırda Azərbaycanda 30 min erməni yaşadığı halda, Ermənistanda bir nəfər də olsun azərbaycanlı yoxdur...".

Müəllif Sumqayıt hadisələrinin təşkilatçılarından birinin milliyyətcə erməni olan Eduard Qriqoryan olduğunu, əslində bu qırğına SSRİ təhlükəsizlik qüvvələrinin başçılıq etdiyinə erməni politoloq Sergey Kurginyanın aydınlıq gətirdiyini xatırladıb. Sonda müəllif xəbərdarlıq edib ki, Qanlı Yanvar kimi ağrılı mövzuya məsuliyyətsiz şərhlər vermək təhlükəlidir. Çünki belə şərhlər həqiqəti təhrif edir, azərbaycanlıların milli heysiyyatına toxunur, millətlərarası və dövlətlərarası münasibətlərə ziyan vurur.

# 2020-ci ildə turistlərin istirahəti üçün ən gözəl məkan haradır?





***İnsanlar öz yaşayış yerlərinin hüdudlarından kənara çıxaraq, istər ölkənin xaricində, istərsə də daxilində öz istirahətlərini təşkil edirlər. Təbii ki, turizm sənayesinin mövcud səviyyəsi, istirahətin təşkili üçün mövcud şəraitin olması turistlərin seçimində əsas amillərdir.***

Əlbəttə ki, ölkəmizdə bu sahənin inkişafı üçün görülən işlər ölkənin müxtəlif bölgələrində turizmin fərqli növlərinin və sağlamlıq, qış, mədəni, işgüzar, ekoturizm və kənd turizmi kimi növlərinin inkişafına ciddi təsir göstərib. Ölkə başçısının məqsədyönlü və balanslı xarici siyasəti və uğurlu daxili siyasəti nəticəsində, Azərbaycan bu gün dünya üzrə ən təhlükəsiz və sabit ölkələr sırasındadır. Ölkəmizdə il boyu turizm imkanlarının və xidmətlərinin təqdim olunması və turistlərin qalma müddətinin uzadılması qış turizminin inkişafına da xüsusi diqqət göstərir. Bu amil isə müasir dünyada turistlərin səyahət seçimi etməsində ən əsas göstəricilərdəndir. Təsadüfi deyildir ki, dünyada olan 11 iqlim qurşağından 9-u ölkəmizdədir. Ölkəmizin tarixi mədəniyyət abidələri var. Şəki Xan Sarayı, Nuhun qəbri, Naxçıvan diyarı, yerli Maçi-Piçku və ya Qubanın Xınalıq kəndi, Talış dağları və s. turistləri üçün çox maraqlı olan məkanlardır.

Ölkəmizdə mövcud olan turizm imkanları dünyanın müxtəlif mətbu orqanlarının diqqətini cəlb edir. Küveytdə böyük oxucu auditoriyasına malik və gündəlik ərəb dilində nəşr olunan "Əl-Qabas" qəzetində "Lonely Planet" saytına istinadən "2020-ci ildə dünyada istirahət üçün 10 ən gözəl yer" sərlövhəli məlumat dərc olunub. Məlumatda "Lonely Planet"in 15-ci təsnifatında 2020-ci ildə turistlərin sərfəli qiymətlər və gözəllik baxımından, səfər edəcəkləri dünyanın 10 ən gözəl şəhərləri arasında paytaxtımız Bakı şəhəri 5-ci yerdə qeyd olunub. Məlumatda, neft və qazla zəngin olan ölkəmizə turistlərin səfəri zamanı bənzərsiz təcrübə təqdim edən unikal bir təyinatın, eyni zamanda, ucuz qiymətə yüksək səviyyədə yaşayışın şahidi olacaqları və ləziz yeməklər yeyəcəkləri qeyd edilib. Həmçinin, Bakı şəhərinə səfər zamanı orada bir neçə mühüm tarixi yerləri ziyarət etmə imkanlarının olacağı bildirilib.

İtaliyanın "Termometro Quoditiano" saytı isə, Azərbaycanı 2020-ci ildə yenidən kəşf ediləsi ölkə adlandırıb. "Lonely planet" turizm jurnalının məqaləsində ölkəmiz 2020-ci ildə görülməsi lazım olan ölkələr siyahısına daxil edilib. Bunun əsasında yazı dərc edən italyan portalı ölkəmizin bu il bir daha kəşfini məsləhət görüb. "Azərbaycan-zərdüştlüyün yaşayan mədəni mərkəzi, müasir və qədim arxitekturanın vəhdəti, xarakterik Xəzər dənizi, keçmiş və gələcəyi özündə birləşdirən ölkə - yeni axtarışlar edən və suallara cavab axtaran hər kəsə maraqlı olacaq" deyə yazıda bildirilir.

Dünyanın müxtəlif ölkələrindən Azərbaycana gələn qonaqlar yüksək səviyyədə qurulmuş turizm obyektlərində istirahət edərək, buranın təbiətinə valeh olurlar. Azərbaycanın belə məkanları sırasında Qəbələnin öz yeri var. Son dövrlər aparılan abadlıq-quruculuq işləri, həyata keçirilən sosial-iqtisadi layihələr Qəbələni daha da füsunkar etməklə yanaşı, insanların güzəranlarını da xeyli yaxşılaşdırıb. Qəbələdə turizm obyektlərinin sayı xeyli artıb. Bu turizm-istirahət mərkəzləri dağ, çay, meşə zolaqları ilə əhatə olunur. Hər bir obyektdə istirahət üçün gözəl şərait yaradılıb. Geniş ərazilərdə atla gəzinti, meşə gəzintisi, balıq ovu, göldə qayıqla gəzinti, üzgüçülük hovuzları, buz üstdə konki meydançası, alpinizm məşğələləri hər bir turisti maraqlandırır. Qəbələnin adət-ənənələri, milli mətbəxi, mədəniyyət və tarixi, təbiəti ilə bağlı məlumat əldə edir, istirahətləri yüksək səviyyədə təşkil olunur. Son illərin statistikası göstərir ki, öz məzuniyyətini Qəbələdə keçirmək istəyində olan turistlərin sayında ilbeil artım müşahidə olunur.

Oğuz da bu gün turizm məkanı kimi məşhurlaşmışdır. Son illər Oğuz rayonunda turizmin inkişafı üçün məqsədyönlü tədbirlər həyata keçirilib. Rayonun turizm mərkəzinə çevrilməsi üçün lazımi infrastruktur yaradılıb. Rayonun siması tamamilə dəyişib. Yenidənqurma işləri bu gün də uğurla davam etdirilir. Şimaldan Rusiya ilə həmsərhəd olan rayon gözəlliyinə görə, "Azərbaycanın İsveçrəsi" adlandırılır. Rayon ərazisinin yarısından bir qədər azı meşələrlə örtülüdür. Burada çoxlu şəlalə, kükürdlü və termal su bulaqları var. Rayon ərazisində qədim tarix və memarlıq abidələri çoxdur.

Ölkəmizdə yay turizmi ilə yanaşı, qış turizm bazasının yaradılması, mövsümlük anlayışını aradan qaldırmaqla, davamlı turizmə nail olmağa şərait yaratdı. Belə ki, turizm sahəsində məqsədli şəkildə həyata keçirilən layihələr qış turizminin inkişafına da yeni yollar açdı. "Şahdağ" Qış-Yay Turizm Kompleksinin yaradılması Azərbaycanın qış turizminin inkişafında uğurlara gətirib çıxardı. Azərbaycanda və ümumiyyətlə, dünyada ən mükəmməl layihələrdən biri olan "Şahdağ" Qış-Yay Turizm Kompleksi oxşar istirahət mərkəzlərindən bənzərsizliyi ilə fərqlənir. Bu layihənin reallaşdırılması respublikamızda dağ-xizək idmanı və digər qış idman növlərinin inkişafı üçün hərtərəfli imkanlar açmışdır. Bu günlərdə "TurStat" turizm portalı bu qış MDB ölkələrində rusiyalı turistlərin istirahəti və səyahəti üçün ən populyar dağ-xizək kurortlarının reytinqini açıqlayarkən, MDB-də dağ xizəklərində və snoubordlarda sürüşmək üçün ən yaxşı kurortların Qazaxıstan, Belarus, Azərbaycan və Qırğızıstanda yerləşdiyini qeyd edib.

MDB məkanında turistlərin daha çox üz tutduğu 10 ən yaxşı dağ-xizək kurortu sırasına Azərbaycanın "Şahdağ" və "Tufandağ" kurort məkanları daxildir. Reytinq MDB məkanının qış kurortlarında turların və istirahət təkliflərinin nəticələrinə əsasən təqdim edilib. Rusiyanın "TurStat" turizm portalı rusiyalı turistlər üçün MDB-də müəllif turlarının ən populyar istiqamətlərinin siyahısını təqdim edərkən, bu siyahıya, Azərbaycandan Bakı, Qobustan, Şəki və Qəbələ ilə yanaşı, həmçinin, Qazaxıstandan Almatı şəhəri və Almatı vilayəti, Burabay və Aktau, Belarusdan Minsk şəhəri, Minsk vilayəti və Vitebsk, Özbəkistandan Buxara və Səmərqənd və s. daxil edilib.

Əlbəttə ki, ölkəmizdə turizmin inkişafının dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildiyi mərhələdə Azərbaycan turistlər üçün cəlbedici məkan olaraq diqqətdədir.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Nikol Paşinyanın reytinqi kifayət qədər aşağı düşüb

***Son vaxtlar erməni KİV-lərində baş nazir N.Paşinyan hökumətinin mövqelərinin zəiflədiyini göstərən yazılar dərc olunur. Ermənistanda siyasi elita daxilində rəqabətin güclənməsi müşahidə olunur. 2018-ci illə müqayisədə baş nazir Nikol Paşinyanın reytinqi kifayət qədər aşağı düşüb.***



Siyasi analitik Ehtiram Aşırlı AZƏRTAC-a bildirib ki, N.Paşinyanın "məxməri inqilab" zamanı verdiyi vədləri yerinə yetirə bilməməsi baş nazirə inamın azalmasına gətirib çıxarıb. O, 2019-cu ili iqtisadi inqilab ili etsə də, bu dönüşü təmin edə bilmədi. Hökumət 2019-cu ildə Ermənistanda iqtisadi artımın 7,5-7,9 faiz təşkil etdiyini bildirir. Buna baxmayaraq, ölkədə işsizlik, immiqrasiya problemlərinin qalması sosial-iqtisadi sahələrdə mühüm islahatların aparılmadığından xəbər verir. Ona görə də Ermənistanda növbəti gözlənilməz etirazların baş qaldıracağı istisna olunmur.

Ermənistan mətbuatının yazdığına görə, N.Paşinyanın inqilab yolu ilə hakimiyyətə gəlməsinin təşkilatçısı olan ABŞ onun reytinqinin aşağı düşməsindən narahatlıq keçirir. Hətta ABŞ-ın İrəvandakı səfirliyi Paşinyanın reytinqini öyrənmək üçün hesabatlar hazırlayır. Çünki növbəti etiraz dalğası ABŞ üçün arzuolunmaz bir şəxsin Ermənistanda hakimiyyət başına gəlməsi ilə nəticələnə bilər. Rəsmi Vaşinqton Ermənistanda vəziyyəti nəzarətdə saxlamaq üçün N.Paşinyana alternativ siyasi varis də hazırlayıb. Bu, baş nazirin müavini Tiqran Avinyandır. Xüsusilə, erməni mətbuatında T.Avinyanın baş nazirin digər müavini Mher Qriqoryandan daha fəal olmasına dair xəbərlərin yayılması N.Paşinyanın narahatçılığına səbəb olmuşdu. Hətta bir müddət aralarındakı münasibətlərin soyuq olduğuna və T.Avinyanın N.Paşinyanın yerində gözü olduğuna dair də yazılar dərc edilmişdi. Qeyd edək ki, T.Avinyan həm də "Soros Fondu"nun Ermənistandakı əsas koordinatorlarından biri sayılır. Nikol Paşinyanın konstitusiya islahatı keçirmək qərarına gəlməsi də baş nazirin zəifləmiş hakimiyyətini möhkəmləndirmək niyyəti ilə izah edilir.

Xatırladaq ki, Ermənistan mediasında hələ bir neçə ay əvvəl N.Paşinyanın 2020-ci ildə konstitusiya referendumu keçirəcəyi barədə məlumat yayılmışdı. Həmin məlumata görə, baş nazir yeni konstitusiyanın qəbulundan sonra ölkədə hakimiyyət bölgüsünü yenidən formalaşdırmağı və növbədənkənar prezident seçkiləri keçirməyi planlaşdırır. Bununla da N.Paşinyan Qarabağ klanının hakimiyyətdə qalmış yeganə nümayəndəsi olan Armen Sarkisyanı prezident postundan uzaqlaşdıraraq onun yerinə öz adamını gətirmək niyyətindədir. Eləcə də konstitusiyaya ediləcək əlavə və dəyişikliklər Nikol Paşinyana məhkəmə-hüquq sisteminə nəzarəti artırmaq imkanı yarada bilər.

Analitik qeyd edib ki, "Hraparak" qəzeti baş nazirin konstitusiyanı dəyişməklə özünə daha monolit hakimiyyət formalaşdırmağa hazırlaşdığını yazır. Referendum da əslində N.Paşinyanın parlamenti buraxmasına xidmət edir. Qeyd edilir ki, Nikol Paşinyan bu yaxınlarda partiya üzvləri ilə məsafə də saxlayır. "Paşinyanı Yeni il münasibətilə təbrik etmək və onu hökumətə məxsus istirahət evində ziyarət etmək hüququna yalnız "seçilmişlər" - Ararat Mirzoyan, Lilit Makunts, Hakob Simidyan sahibdirlər. Nikolun uzun müddətdir parlamenti buraxmaq istəyi son vaxtlar daha əsaslı olub. Fraksiya onu daim əvəz edir, Makunts və Simidyan isə bütün günü deputatlar arasında təbliğat aparır. Əvvəllər Nikol Paşinyan fraksiyasından çıxan bir deputatın mandatını verməsi barədə xəbərdarlıq etsəydi, parlament dağılardı. İndi o, artıq partiyalar haqqında qanuna və Seçki Məcəlləsinə dəyişikliklər gözləyir. Yeri gəlmişkən, o, 88 deputatın olmasına meyilli deyil və adekvat, səyyar komanda yaratmağa çalışacaq.

Nikol Paşinyanın reytinqinin aşağı düşməsi hakimiyyət dəyişikliyini qaçılmaz edir. Ona görə də yaxın vaxtlarda Ermənistan rəhbərliyinə yeni fiqur gələ bilər. Hətta bu yaxınlarda Ermənistan mətbuatında N.Paşinyanın psixoloji xəstəliyinin olması barədə məlumat yayılmışdı. Belə suallar səslənir ki, hökumət nə üçün bu problemin qarşısını almır? Hətta bir müddət öncə onun barəsində yayılmış videoda da göstərilirdi ki, Vanadzor şəhərinə səfəri zamanı həyat yoldaşı yaxınlaşıb Nikol Paşinyanın cibinə ağ kağıza bükülmüş nə isə qoyur. Həmin bükülünün ya narkotik, ya da psixotrop maddə olduğu iddia edilirdi. Ermənistanın ən populyar qəzetləri onu hakimiyyətdən uzaqlaşdırmaq üçün Robert Köçəryanın oğlanları tərəfindən planlar hazırlandığını yazır.

E.Aşırlı bildirib: "Mətbuatda "Paşinyanın növbəti yalanı" sərlövhəli məqalələr tez-tez dərc edilir. Onun yerinə kimin gəlməsindən danışsaq, fikrimcə, Paşinyanı əvəz edə biləcək ən real namizəd hazırda prezident Armen Sarkisyandır. N.Paşinyan bu prosesin qarşısını almaq və hakimiyyəti əlində cəmləşdirmək üçün ölkədə prezident üsul-idarəsini bərpa etməyə çalışır. Yəni, özü prezident olmaq istəyir. Çünki N.Paşinyan özü də çox gözəl başa düşür ki, Ermənistan parlamentli respublika üsul-idarəsinə hazır deyildi. Ölkədə parlamentar sistem tamamilə çökmüş vəziyyətdədir. Bu baxımdan konstitusiya referendumu keçirməkdə məqsəd ölkədə parlamentli sistemdən prezidentli respublika üsul-idarəsinə qayıtmaqdır. Ancaq Paşinyanın buna nail olacağını söyləmək çətindir. Armen Sarkisyan vaxtilə Avropada yaşayıb fəaliyyət göstərdiyi üçün ermənilər onu mədəni-elitar təbəqənin nümayəndəsi kimi hakimiyyətdə saxlamaq istəyirlər. Hesab edirlər ki, Armen Sarkisyan hakimiyyətdə qalarsa, ermənilərin vəziyyəti hərtərəfli yaxşılaşar. Xüsusilə son zamanlar erməni mediasında çıxan xəbərlərə görə xalqın rəğbətini qazanan prezident A.Sarkisyanın reytinqi durmadan artır. Onu da qeyd edək ki, prezident A.Sarkisyan həm Qərbdə, həm də Rusiyada böyük nüfuza sahibdir. Erməni diasporunun hazırkı prezidentə dəstək verildiyi də bildirilir".

Analitik bildirib ki, digər tərəfdən, N.Paşinyan da ifadə vermək üçün istintaqa çağırılması haqda məlumat və şəkillər paylaşmaqla reytinqini artırmağa çalışır. Xüsusi İstintaq Komitəsinə nə üçün çağırıldığını açıqlamasa da, Ermənistan tarixində ilk baş nazir kimi müstəntiqin kabinetinə gəldiyini yazıb. Son vaxtlar onun qızının və həyat yoldaşının siyasətə müdaxilə etməsi də xalq arasında narazılıq yaradır. Hesab edirəm ki, N.Paşinyan konstitusiya islahatı aparmaqla hakimiyyəti əlində saxlaya bilməyəcək. Bir il bundan əvvəl Paşinyanı dəstəkləyən erməni xalqı artıq ona qarşı çıxır. Yerli əhali tez-tez hökumət binasının qarşısında etiraz aksiyaları keçirərək, Paşinyandan verdiyi sözləri yerinə yetirməsini tələb edirlər. Xüsusilə də hərbçilərin ailələrini təmin edə bilməməsi, uşaqlarını xəstəxanaya aparacaq maddi imkanlarının olmaması Ermənistan ordusundakı dərin böhranın bariz nümunəsidir. Hərbçilər xalqa müraciət edərək onlardan kömək istəyirlər. Göründüyü kimi, bütün bunlar N.Paşinyanın xalqa vəd etdiyi çiçəklənən "yeni Ermənistan"dır.



## Qorbaçov niyə Bakını seçdi?

MƏTLƏB
Metlebsalahov@mail.ru

***Xalq var ki, tarixində öyünüləsi heç bir zəfər yaddaşı olmur. Tarixi boyu qürur duyacağı və dünyaya təqdim edəcəyi zəfər tarixi yaşamır. Xalqlar da insanlar kimidir. İnsan var ki, bütün 90 illik ömrünü heç bir əlamətdar gün, onu insanlara tanıdacaq və yaddaşlarda əbədi həkk edəcək heç bir mühüm hadisə yaşamadan dünyadan köçüb gedir.***

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə isə, şüurlu surətdə meydanlara azadlıq hayqıraraq çıxan, siyasətsiz, yalnız öz daxilindəki milli qürurunun səsi ilə sovet tankının üzərinə yeriyən azərbaycanlılar, Azərbaycana əsl qürur və şərəf tarixi yaşatdılar. Daim faciələrlə yanaşı, həmçinin də, heyrətamiz tarixi zəfərlərlə zəngin olan Azərbaycan tarixi, qanlı 20 yanvar zəfəri ilə yenidən taclandı. Diqqət edin: şüurlu şəkildə, bilə-bilə ki, ölümə gedirlər, minlərlə insan Bakı küçələrində dünyanın iki nəhəng dövlətindən birinə qarşı açıq şəkildə meydan oxuyurdu. Öz azadlıq ideyaları ilə, yenidən Azərbaycana müstəqillik gətirmək istəkləri ilə. Bu, gerçəkdən bizim bütün tarix boyu qürur duyacağımız ən böyük zəfər tariximizdəki ən şanlı səhifələrdəndir. Burası belədir.

Amma məsələnin əsas tərəfi, artıq həm siyasi, həm iqtisadi və həm də ideoloji olaraq, can üstündə olan qanlı bir imperiyanın son nəfəsində belə, qanlı pəncələrini Bakıya yönəltməsidi. Sanki Mixail Qorbaçov, SSRİ-nin süqutunda belə, imperiyanın qanlı çələyini Azərbaycanda "boşaltmağa" and içmişdi.

Bakı bütün zamanlarda bütün supergüclər üçün yağlı tikə rolunu oynayıb. Həm maddi, həm iqtisadi, həm də ideoloji olaraq. Əgər Adolf Hitler sovet hökumətini yer üzündən silmək üçün hazırladığı tort üzərində əsas yağlı tikə kimi Bakı neftini göstərirdisə, M.Qorbaçovun əli ilə supergüclər də SSRİ-nin süqutundan sonrakı dövr üçün münaqişə və nifrət dolu "yağlı tikələri" Bakıda "cücərtmək" istəyirdilər. Hadisələrdən keçən son 30 il də göstərdi ki, yazdığım kimi, sovet hökumətini tarixin zibilliyinə atanlar, Bakıdan başlayan hərəkatı qanla boğmaqla, Qarabağ kartını işə salıb bütün region üçün gələcək 30 ildə mükəmməl münaqişə və müharibə ocağı cücərtdilər. Hər şey onların istədikləri kimi oldu. Reallıq budur. Acıdır, amma həqiqətdir!

Sözsüz ki, M.Qorbaçov açıq-aydın SSRİ-nin süqutu üçün ağlagələn və gəlməyən istənilən addıma baş vurdu və Qərbdəkilərin xoşuna gəlmək üçün, Berlin divarını uçurtduğu kimi, bu dəfə SSRİ-nin özünü havaya uçurmağa boyun oldu. Amma sovet hökumətini dağıtmaq üçün də müəyyən əsaslar, onun süqutunu sürətləndirən ən radikal addımlar atmaq lazım idi. Bunun kulminasiya nöqtəsi isə, Bakı hadisələri oldu. Düzdür, Baltikyanı ölkələrdə və Gürcüstanda da etirazlara qarşı ordu yeridilmişdi. Amma Bakıda baş qaldıran milli etirazlar və azadlıq istəyi SSRİ-nin sütunlarını çox sürətlə ovutmağa başladı. Sözün əsl mənasında, Bakı ssenarisi sovet dövlətinin bitirici finalı sayıldı. Öz vətəndaşına ölümcül və zəhərli güllələr tuşlayan dövlət, artıq vətəndaşının qana boyanmış gözlərində BİTMİŞDİ!

Təsəvvür edin ki, sovet dövlətinin rəhbərləri bütün ölkəni başına alan milli etiraz hərəkatını, milli oyanışı mühüm üsullarla sakitləşdirib, aradan qaldırmaq əvəzinə, kommunizmi birdəfəlik gözdən salmaq üçün öz vətəndaşına qarşı terror yolu tutdu. Özü də bilə-bilə ki, bu addım artıq sovet dövlətinin "fatihəsini" oxuyacaq.

Demək Mixail Sergeyeviç sovet dövlətinin boğazına ip salıb amerikalıların ayağının altına xalı kimi sərən bu adam, SSRİ-nin süqutundan da əməllicə yararlandı. Keçmiş SSRİ ərazisində "münaqişə" tonqalları çatmaqla, regionu uzun illər əllərində saxlamağı planlaşdıran supergüclər, M.Qorbaçovun əli ilə bu işi olduqca məharətlə gördülər. Bu işin ana xətti neft Bakısı, çoxmillətli Bakı idi. Sovet dövlətinə daxil olan millətləri bir-birinin amansız düşməninə çevirməklə, M.Qorbaçov öz missiyasını qanlı, amma onun üçün uğur sayılacaq şəkildə bitirdi. Bakı qırğını, sovet dövləti üçün, sözün əsl mənasında, "fatihə" oldu...

**Bu gün dünyanın enerji tələbatının ödənilməsi üçün bir çox ölkələr öz iqtisadi potensialından maksimum istifadə edir, bu mühüm məsələdə öncüllüyü əldə saxlamaq və eyni zamanda, söz sahibinə çevrilmək marağını ortaya qoyur. Belə bir məqamda uğurlu iqtisadi siyasətlə yanaşı, yüksək nüfuz, eyni zamanda, xarici siyasət faktorunda ardıcıl nailiyyətlərin əldə olunması da vacib nüanslardan hesab edilə bilər. Xüsusilə, enerji siyasəti yönündə uğur qazanmaqdan ötrü, bir sıra həssas amillər də dayanır ki, həmin amillərdən biri tərəfdaşlıq, partnyorluq və etibarlılıq prinsipləridir. Məhz bu məsələdə Azərbaycanın apardığı siyasət, tam mənada, öz dinamik ardıcıllığını qoruyur, ölkəmiz bir sıra qlobal və regional layihələrdə təşəbbüskar və ideyaverici rolunda çıxış edir.**












## Hər biri 15,75 milyard kubmetr təbii qaz tutumuna malik iki xətdən ibarət "Türk axını"ndan Avropa qitəsinin cənubunda yerləşən ölkələr yararlanacaqlar

# Üç enerji nəhəngi - Azərbaycan, Türkiyə və Rusiya reallığı!

Bəlli olduğu kimi, ötən həftə Türkiyənin İstanbul şəhərində "Türk axını" təbii qaz boru kəmərinin açılış mərasimi keçirildi. Rusiya təbii qazının Türkiyəyə nəqli və bu ölkə ərazisindən keçərək, Avropaya ötürülməsini nəzərdə tutan "Türk axını" layihəsi həm də iki ölkə arasında əlaqələrin enerji sahəsində də inkişafına töhfələrini verəcək. Daha dəqiq desək, hər biri 15,75 milyard kubmetr təbii qaz tutumuna malik iki xətdən ibarət "Türk axını"ndan Avropa qitəsinin cənubunda yerləşən ölkələr yararlanacaqlar. Beləliklə, bu əhəmiyyətli layihə sayəsində Rusiyanın təbii qazı tarixdə, ilk dəfə olaraq, Türkiyə üzərindən nəql olunub, Avropaya qədər çatdırılacaq. Bu isə, daha bir faktoru önə sürür ki, artıq bu bölgənin Avropanın enerji təchizatındakı rolu artmaqla yanaşı, digər iqtisadi potensiallıq perspektivlərinə yol açır.

Daha bir mühüm hadisəni də xatırlatmaq olar ki, ötən ilin 30 noyabr tarixində TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimi baş tutdu və "Cənub Qaz Dəhlizi"nin nüvəsi hesab edilən, eləcə də, "Enerjinin İpək Yolu" adlandırılan TANAP Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz-2" qaz-kondensat yatağından çıxarılan qazı avropalı istehlakçılara çatdıracaq. Nəticədə, "Cənub Qaz Dəhlizi"nin 3 seqmenti - "Şahdəniz", Cənubi Qafqaz Boru Xətti və TANAP uğurla realizə edilir. Dördüncü layihə kimi tanınan TAP-ın da icrası artıq başa çatdırılmaq üzrədir.

## Prezident İlham Əliyev: "Bu layihənin həm Rusiya üçün, həm də Türkiyə üçün nə dərəcədə vacib olduğunu bilirik"

Bu zaman daha bir sual yaranır: bu kimi mühüm layihələrin icrasında enerji təhlükəsizliyi daha hansı üstünlükləri ilə seçilə bilər? Məhz bu sualın cavabını araşdırarkən, belə nəticəyə gələ bilərik ki, enerji təhlükəsizliyi formatında regionun üç dövləti söz sahibinə çevrilir - Azərbaycan, Türkiyə və Rusiya reallığı!

Onu da xatırlatmaq yerinə düşərdi ki, Prezident İlham Əliyev ötən ilin son günündə-dekabrın 31-də Rusiyanın "Rossiya-24" televiziya kanalına müsahibəsində sözügedən mövzu ilə bağlı bir sıra əhəmiyyətli məqamlara toxunmaqla yanaşı, həm də mühüm mesajlarını çatdırdı. Həm "Cənub Qaz Dəhlizi"nin, həm də "Türk axını" layihəsinin vacibliyini, regionun, həmçinin, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayacaq üç ölkənin əməkdaşlığını geniş şəkildə şərh etməklə yanaşı, bir sıra dairələrin rəqabət məsələsi ilə bağlı fikirlərinin əsassız olduğunu vurğulamışdı. SİTAT: "Bizim və ya Rusiyanın həyata keçirdiyi enerji layihələri məsələsi heç vaxt hər hansı ciddi diskussiyaların mövzusu olmayıb. Yəni mənim fikrimcə, bizim həyata keçirdiyimiz layihələri həm Rusiyada, həm də Azərbaycanda dəstəkləyirlər. "Türk axını" layihəsinə gəldikdə, bu layihənin həm Rusiya üçün, həm də Türkiyə üçün nə dərəcədə vacib olduğunu bilirik. Hər iki ölkə bizim yaxın tərəfdaşlarımızdır. Buna görə də, biz bu layihəni lap əvvəldən dəstəkləmişik".

Bu məsələdə Rusiya prezidenti Vladimir Putinin də fikirləri bir sıra əhəmiyyətli məqamları əks etdirir. Belə ki, 15 milyon ailəni təbii qazla təmin edəcək "Türk axını" layihəsinin açılışında Vladimir Putin mərasimdə iştirak edən hər kəsin yalnız Rusiya və Türkiyə üçün deyil, Avropa üçün də mühüm hadisənin şahidi olduğunu qeyd etmişdi.

O cümlədən, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan da mühüm mesajını Avropaya çatdıraraq bildirib ki, bu layihə özünün bir sıra perspektivləri ilə tarix yazacaq: "Bundan bir ay əvvəl bölgəmizin ən strateji xətlərindən biri olan TANAP-ı əziz qardaşım, Azərbaycan Prezidenti İlham Əliyevlə birgə istifadəyə verdik. "Enerjinin İpək Yolu" adlandırılan TANAP-la ildə 16 milyard kubmetr Azərbaycan təbii qazı Türkiyə və Avropa istehlakçılarına çatdırılacaq. Qarşıdakı illərdə TANAP-ın ötürmə gücünü əvvəlcə 24 milyard kubmetrə, daha sonra da 31 milyard kubmetrə çatdırmağı planlaşdırırıq".

**Nəticə olaraq, qeyd edə bilərik ki, bu gün regional və əsas güclərə çevrilən Azərbaycan, Türkiyə və Rusiya reallığı yaxın illər ərzində, daha böyük iklərə və nəhəng layihələrə imza atmaqla, nəinki Avropa qitəsinin, bütünlükdə, dünyanın enerji təminatçıları rolunu qazanacaqlar. Artıq bu gerçəklik öz sözünü əməli işlərlə sübuta yetirməkdədir.**

## Ölkə rəhbəri: "Bu gün "Cənub Qaz Dəhlizi" özündə 7 ölkəni birləşdirir və bu, artıq beynəlxalq əməkdaşlıq layihəsidir"

Bütün bu kimi reallıqlardan, həm də belə bir nəticə hasil etmək olar ki, enerji sahəsində əməkdaşlıq Azərbaycana, Türkiyəyə və Rusiyaya böyük dividendlər gətirməklə yanaşı, bütövlükdə, regiona iqtisadi inkişaf, təhlükəsizlik, sabitlik və rifah da bəxş edir. Ona görə də, Prezident İlham Əliyevin TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimində əməkdaşlığın əhəmiyyəti ilə bağlı fikirləri qeyd edilən bütün reallıqları önə sürür: "Bu gün "Cənub Qaz Dəhlizi" özündə 7 ölkəni birləşdirir və bu, artıq beynəlxalq əməkdaşlıq layihəsidir. Bu layihə ölkələr arasında körpülər yaradacaq və daha böyük anlaşmaya yol açacaq. Bu layihədə iştirak edən 7 ölkə, - onlardan üçü Avropa İttifaqının üzvüdür, - bundan sonra uzun illər birlikdə çalışacaq və bunun faydasını bölüşəcəklər. Yəni bu layihə əməkdaşlıq, sabitlik və uzunmüddətli anlaşma gətirir".

Nəticə olaraq, qeyd edə bilərik ki, bu gün regional və əsas güclərə çevrilən Azərbaycan, Türkiyə və Rusiya reallığı yaxın illər ərzində, daha böyük iklərə və nəhəng layihələrə imza atmaqla, nəinki Avropa qitəsinin, bütünlükdə, dünyanın enerji təminatçıları rolunu qazanacaqlar. Artıq bu gerçəklik öz sözünü əməli işlərlə sübuta yetirməkdədir.

***Rövşən NURƏDDİNOĞLU***

# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını ugurla davam etdirir*

## Cəlilabadlıların seçimi Malik Əvəz oğlu Həsənovdur

***Yeni Azərbaycan Partiyasının 67 saylı Cəlilabad şəhər Seçki Dairəsindən deputatlığa namizədi Malik Həsənov rayonun Şorbaçı, Cəlayır və Muğan kəndlərində seçicilər ilə görüşü keçirilib.***



Görüşlərdə deputatlığa namizəd Malik Həsənov haqqında seçicilərə geniş məlumat verilib, ölkəmizdə keçirilən bütün seçkilərdə cəlilabadlıların yüksək əhval-ruhiyyə ilə iştirak etdiyi bildirilib.





Həmin görüşlərdə Cəlilabad rayon təşkilatının sədri Mirsüleyman Mirxaslı rayonda seçicilərin təbliğat-təşviqat tədbirləri və namizədlərin seçkiqabağı görüşləri seçicilərin mütəşəkkilliyi və fəallığı şəraitində keçdiyini bildirib. Həmçinin, Yeni Azərbaycan Partiyasının 67 saylı Cəlilabad şəhər Seçki Dairəsindən namizədi, Milli Məclisin deputatı Malik Əvəz oğlu Həsənov haqqında seçicilərə ətraflı məlumat verərək, deputatlıq fəaliyyəti dövründə onun gördüyü işlərdən ətraflı bəhs edib və seçiciləri 9 fevralda keçirilən seçkilərdə ona səs verməyə çağırıb.

Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Malik Həsənov seçicilərin Milli Məclis seçkilərinə maraqla yanaşdıqları üçün onlara öz minnətdarlığını bildirib. M.Həsənov deyib ki, Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində, ölkəmiz inkişaf edir. Onun sözlərinə görə, bu inkişafdan Cəlilabad rayonuna da pay düşür: “Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində Cəlilabad rayonunda da böyük abadlıq və quruculuq işləri həyata keçirilir. Təbii ki, bütün bunlar əhalinin rifahının yüksəlməsində mühüm rol oynayır”.

Malik Həsənov seçicilərə minnətdarlıq ifadə edərək, bildirib ki, məni yenidən Milli Məclisin deputatı seçsəniz, əmin edirəm ki, hər birinizin problemini öz şəxsi vətəndaş problemim kimi qəbul edəcək, hər bir seçiciyə fərdi yanaşacaq, imkan daxilində həmin problemlərin həllinə yardımçı olacağam.

Sonda Malik Həsənov 9 fevralda keçiriləcək parlament seçkilərində seçiciləri fəal olmağa çağırıb.

Görüşlərdə çıxış edən seçicilər seçki günü YAP-ın namizədinə səs verəcəklərini bildiriblər.

**RƏFİQƏ KAMALQIZI**

## Məşhur Məmmədov Masallı ictimaiyyətinin alternativsiz seçimidir

***Yeni Azərbaycan Partiyası təbliğat-təşviqat kampanisını uğurla davam etdirir. Partiya tərəfindən 70 saylı Masallı şəhər Seçki Dairəsindən namizədliyi irəli sürülmüş Məşhur Şahbaz oğlu Məmmədov rayonun Banbaşı və Böyük Xocavar kəndində keçirdiyi növbəti görüşdə, yerli əhalinin məşğul olduğu kənd təsərrüfatı və kiçik mebel istehsalı sahələri ilə maraqlanıb.***





Görüşdə çıxış edən YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev son on altı ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə çoxsaylı uğurların əldə olunduğunu və Azərbaycan xalqının yenə də öz doğru seçimini edərək, YAP-ın namizədlərini dəstəkləyəcəklərini vurğulayıb.

Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyasının 70 saylı Masallı şəhər Seçki Dairəsi üzrə deputatlığa namizədi Məşhur Şahbaz oğlu Məmmədov seçicilər qarşısında çıxış edərək, öz platformasını qısa şəkildə diqqətə çatdırıb. Bildirib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən mükəmməl strategiya nəticəsində, Azərbaycan yüksək sürətlə inkişaf edən ölkələr sırasına daxil olub.

Məşhur Məmmədov Masallı seçicilərinin ona səs verəcəyi və deputat seçiləcəyi təqdirdə, verdiyi bütün vədlərin həyata keçirilməsinə çalışacağını bildirib.

Görüşdə iştirak edən Masallı rayon ictimaiyyətinin nümayəndələri, ağsaqqallar, ziyalılar Milli Məclisə seçkidə mövcud dövlət siyasətini dəstəkləməklə, YAP-a inamını ifadə edəcəklərini və YAP-ın 70 saylı Masallı şəhər Seçki Dairəsindən deputatlığa namizədi Məşhur Məmmədova səs verəcəklərini bildiriblər.

Sonda seçicilər onları maraqlandıran məsələlərlə bağlı deputatlığa namizəd Məşhur Məmmədova müraciətlər edib, suallar veriblər.

**RƏFİQƏ KAMALQIZI**

## Kamilə Əliyevanın təbliğat-təşviqat kampaniyası uğurla davam edir

***Fevralın 9-da keçiriləcək parlament seçkilərində 111 saylı Zaqatala-Balakən Seçki Dairəsindən Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Kamilə Əliyevanın təbliğat-təşviqat kampaniyası uğurla davam edir. Kamilə Əliyevanın seçicilərlə növbəti görüşü Balakənin Katex kəndinin və Zaqatalanın Qazangül qəsəbə sakinləri ilə baş tutub.***



Görüşləri açan Zaqatala rayon təşkilatının sədri Habil Qurbanov deputatlığa namizəd Kamilə Əliyevanın bundan əvvəlki iki çağırış millət vəkili kimi gördüyü işlərdən, fəaliyyətindən bəhs edərək, sakinləri seçkilərdə aktiv iştirak etməyə və layiqli namizədə səs verməyə səsləyib.

Görüşdə çıxış edən Kamilə Əliyeva, son 16 il ərzində, ölkədə görülən işlərdən və həyata keçirilən uğurlu siyasətdən söz açıb. Ölkə daxilində həyata keçirilən sosial, aqrar və sənaye layihələrinin uğurla icra edildiyini görüş iştirakçılarının diqqətinə çatdırıb.

Daha sonra Kamilə Əliyevanın Zaqatala rayonunun Göyəm kənd sakinləri ilə fərdi görüşü keçirilib. Görüş zamanı



namizəd seçicilərin problemləri ilə yaxından maraqlanıb. Növbəti dəfə deputat seçilərsə, onların problemlərinin həllinə səy göstərəcəyini bildirib.

Görüşlərdə çıxış edən seçicilər bildiriblər ki, fevralın 9-da seçki günü Azərbaycanı sabitlik adasına çevirən ölkə Prezidenti İlham Əliyevin Sədri olduğu, seçkilərə “Daha güclü Azərbaycan naminə” şüarı ilə gedən Yeni Azərbaycan Partiyasının irəli sürdüyü namizədi Kamilə Əliyevaya səs verəcəklərini bəyan ediblər.

**ZÜMRÜD BAYRAMOVA**

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*

## Seçicilərin seçimi Aqil Sadıq oğlu Məmmədovdur





***Fevralın 9-da Azərbaycanda növbəti parlament seçkilərinə namizədliyi irəli sürülən namizədlərin təbliğat-təşviqat kampaniyası yüksək səviyyədə davam etməkdədir. 123 saylı Kəlbəcər Seçki Dairəsi Yeni Azərbaycan Partiyasının millət vəkilliyinə namizədi Aqil Sadiq oğlu Məmmədovun da seçicilərlə silsilə görüşləri keçirilir.***

123 saylı Kəlbəcər Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının namizədi Aqil Sadıq oğlu Məmmədov yanvarın 27-də Mingəçevir şəhər bələdiyyəsinin binasında, günün ikinci yarısı Yevlax rayonu Bəşir Səfəroğlu adına xalq teatrının binasında seçicilərlə görüş keçirib.

Görüşlərdə çıxış edən namizədin səlahiyyətli nümayəndəsi, rayon təşkilatının aparat rəhbəri Qənaət Əsgərov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən uğurlu sosial-iqtisadi siyasətin bölgələrin inkişafına təkan verdiyini deyib. Həmçinin, Q.Əsgərov Aqil Məmmədovun bütün fəaliyyəti böyu daim əhali ilə təmasda olduğunu, onların problemlərini də öz problemi kimi həllinə çalışdığını bildirib: "İnanırıq ki, Aqil Məmmədov seçicilərin yüksək etimadı ilə parlamentə üzv seçildikdən sonra da, öz missiyasına sadiq qalacaq, seçicilərinin arzu və istəklərini Milli Məclisin tribunasından səsləndirəcək, onların problemlərinin həllində əlindən gələni əsirgəməyəcəkdir. Seçiciləri Azərbaycanın daha da güclənməsi üçün "Daha güclü Azərbaycan naminə!" YAP-ın namizədinə səs verməyə çağırıram".

Görüşdə seçicilərdən Həsən Məmmədov, Həbib Misirov, Zahid Muxtar və başqaları 9 fevralda keçiriləcək parlament seçkilərində YAP-ın namizədi Aqil Məmmədova səs verəcəklərini bildiriblər.

YAP-ın parlament seçkilərinə irəli sürdüyü namizədi Aqil Sadiq oğlu Məmmədov görüşdə çıxış edərək bildirib ki, ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət daha güclü Azərbaycanın təşəkkül tapmasına xidmət göstərir: "Təsadüfi deyil ki, Yeni Azərbaycan Partiyası seçkilərə "Daha güclü Azərbaycan naminə!" şüarı ilə qatılıb. Bu gün xalqımız Yeni Azərbaycan Partiyasına inanır, bu partiyanın irəli sürdüyü namizədlərə etimad göstərir. Məhz bu günə kimi keçirilən bütün seçkilərdə Yeni Azərbaycan Partiyası parlaq qələbələr əldə edib. Əminəm ki, seçicilərimiz daha güclü Azərbaycan naminə YAP-ın namizədinə səs verəcəklər".

Çıxış edən seçicilər, hər zaman olduğu kimi, budəfəki seçkilərdə də YAP-ın namizədinə səs verəcəklərini bildiriblər.

Aqil Məmmədov, həmçinin, Milli Məclisə deputat seçiləcəyi təqdirdə, görəcəyi işlər barəsində də danışaraq, vurğulayıb ki, yalnız və yalnız dövlətimizin, xalqımızın və seçicilərin mənafeyi naminə fəaliyyət göstərəcək, partiyamızın siyasi baxışlarına uyğun olaraq addımlar atacaq, xalqımızın daha da yaxşı yaşamasına xidmət edən qanunların qəbulunda fəallıq nümayiş etdirəcək.

A.Məmmədov seçiciləri fevralın 9-da fəal olmağa və layiqli namizədə səs verməyə çağırıb: "İnanıram ki, seçicilərimiz "Daha güclü Azərbaycan naminə" bu seçki prosesində də aktiv iştirak edəcək və öz namizədlərini dəstəkləyəcək".

**RƏFİQƏ HÜSEYNOVA**

## Nəsimi rayon seçiciləri Məlahət İbrahimqızına səs verəcəklər

***Fevralın 9-da Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək parlament seçkilərinə "Daha güclü Azərbaycan naminə" devizi altında təbliğat-təşviqat kampaniyası çərçivəsində 21 saylı Nəsimi birinci Seçki Dairəsindən partiyanın namizədi Məlahət İbrahimqızının 2-ci mikrorayonda Mir Cəlal Paşayev və 4-cü mikrorayon Seyidzadə küçələrinin sakinləri ilə görüşü keçirilib. Görüşdə çıxış edən YAP-ın deputatlığa namizədi Məlahət İbrahimqızı ölkədə həyata keçirilən uğurlu daxili və xarici siyasəti diqqətə çəkərək, son 16 il ərzində, Azərbaycanda görülən işlərdən və əldə olunan uğurlardan danışıb.***





Məlahət xanım qeyd edib ki, dövlət başçısının uğurlu daxili və xarici siyasəti, Respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın sosial siyasətdəki problemlərin həllinə humanist yanaşması, Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA-nın rəhbəri Leyla xanım Əliyevanın həm ölkəmizdə, həm də xaricdə ətraf mühitin qorunmasında həyata keçirdiyi layihələri diqqətlə izləməniz çox təqdirəlayiqdir: "Bu gün Leyla xanım Əliyevanın, respublikamızın müxtəlif rayonlarında olduğu kimi, Nəsimi rayonunda gerçəkləşdirdiyi və mikrorayon sakinlərinin istifadəsinə verilən "Abad həyat" layihələri sizin asudə vaxtınızı keçirməyiniz üçün ən gözəl məkandır. Əziz seçicilər, sizin dəyərli təklifləriniz, yerli icra strukturlarının təmsilçiləri haqqında bəzən haqlı iradlarınız və tənqidləriniz bizim gələcək fəaliyyətimizin yol xəritəsi olacaqdır. Sizdən xahiş edirəm ki, növbəti görüşlərimizdə də fəal iştirak edin və dəyərli fikirlərinizlə ümumi işimizə dəstək verin. Daha güclü Azərbaycan naminə hər birimiz öz töhfəmizi verək".

Görüşlərdə çıxış edən seçicilər qeyd ediblər ki, hər zaman dövlətə və dövlətçiliyə sadiqdirlər. Seçimlərini ilk gündən müəyyənləşdirdiklərini bildirən rayon seçiciləri bəyan ediblər ki, onların seçimi yenidən namizədliyi YAP tərəfindən irəli sürülən Məlahət İbrahimqızıdır. Onlar fevralın 9-da böyük coşquyla seçki məntəqələrinə gedərək, seçimlərini təsdiqləyəcəklər.

**Nəzakət ƏLƏDDİNQIZI**

## Nizami Cəfərovun seçicilərlə görüşləri davam edir

***Yeni Azərbaycan Partiyasının parlament seçkilərinə namizədi Nizami Cəfərovun Ağstafa rayonunun Düzqışlaq, Qarahəsənli və Xılxına kəndlərində seçicilər ilə görüşləri keçirilib.***



Görüşlərdə deputatlığa namizəd Nizami Cəfərov haqqında seçicilərə geniş məlumat verilib, ölkəmizdə keçirilən bütün seçkilərdə ağstafalıların yüksək əhval-ruhiyyə ilə iştirak etdikləri bildirilib.



Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Nizami Cəfərov seçicilərin Milli Məclis seçkilərinə maraqla yanaşdıqları üçün onlara öz minnətdarlığını bildirib. N.Cəfərov deyib ki, Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində ölkəmiz inkişaf edir. Onun sözlərinə görə, bu inkişafdan Ağstafa rayonuna da pay düşür: "Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində Ağstafa rayonunda da böyük abadlıq və quruculuq işləri həyata keçirilir. Təbii ki, bütün bunlar əhalinin rifahının yüksəlməsində mühüm rol oynayır".

N.Cəfərov 9 fevralda keçiriləcək seçkilərdə seçiciləri fəal olmağa çağırıb.

Görüşlərdə çıxış edən seçicilər seçki günü YAP-ın namizədinə səs verəcəklərini bildiriblər.

**R.KAMALQIZI**

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*



## YAP-ın namizədi Rauf Əliyevin seçicilərlə görüşləri davam edir





***Dünən "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunda Yeni Azərbaycan Partiyası tərəfindən 13 saylı Xəzər-Pirallahı Seçki Dairəsindən namizədliyi irəli sürülən Rauf Əliyevin 9 fevral parlament seçkilərində səs verəcək ağsaqqallar, ziyalılar və gənc seçiciləri ilə görüşü keçirilib.***

Tədbirdə YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov və ilk dəfə səs verən gənclər də çıxış edərək cəmiyyətin, millətin, dövlətin mövcudluğu, inkişafı və yaşamının gənclikdən asılı olması qeyd olunub. Çıxışlarda hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən asılı olması bildirilib. Qeyd olunub ki, Azərbaycanda gənclərin dövlətin gələcək həyatında müstəsna rola malik olmaqla yanaşı, həm də aparıcı qüvvəyə çevrilməsi istiqamətində məqsədyönlü siyasət yürüdülür.

Milli Məclisə deputatlığa namizəd Rauf Əliyev çıxış edərək, hesabat dövrü ərzində fəaliyyəti barədə, əsasən, Mərdəkan və Şağan qəsəbələrində onun təşəbbüsü və bilavasitə müraciətləri əsasında müvafiq dövlət proqramlarına və investisiya layihələrinə daxil edilərək, həyata keçirilən tədbirlər və qarşıda duran həlli vacib olan məsələlər barədə görüş iştirakçılarına məlumat verib. Seçiciləri YAP-ın namizədlərinə səs verməyə çağırıb.

***Rövşən RƏSULOV***

## YAP-ın deputatlığa namizədi Elnur Allahverdiyevin seçicilərlə görüşü uğurla davam edir









***YAP Mərkəzi Seçki Qərargahının Yasamal rayon şöbəsində Milli Məclisə deputatlığa namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülən, 17 saylı Yasamal III Seçki Dairəsində qeydə alınan Elnur Allahverdiyevin seçicilər ilə növbəti görüşü keçirilib.***

Ağsaqqalların iştirakı ilə keçirilən görüşdə YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov deputatlığa namizəd Elnur Allahverdiyev barədə seçicilərə məlumat verib.

Namizədin vəkili, tanınmış kulturoloq Fuad Məmmədov Elnur Allahverdiyevin şəxsi keyfiyyətləri, fəaliyyəti ilə bağlı fikirlərini söyləyib. Bildirib ki, əqli, mənəvi, intellekt mədəniyyəti şəxsiyyətində vəhdət halında birləşdirən və inkişaf etdirən Elnur Allahverdiyev cəmiyyətdə özünəlayiq hörmət qazanan sağlam düşüncəli ziyalılarımızdandır.

Görüşdə çıxış edən deputatlığa namizəd Elnur Allahverdiyev platformasında qeyd olunan vəzifələrdən ətraflı danışıb. Vurğulayıb ki, Heydər Əliyev Mərkəzinin əməkdaşı kimi, Ulu Öndər Heydər Əliyevin ideyalarının təbliğinə də diqqətlə yanaşır, YAP-ın Sədri, Prezident İlham Əliyevin apardığı siyasətin gənc nəslə aşılanmasına da töhfələr verməyə çalışır. "Dövlət başçımız İlham Əliyevin siyasi-iqtisadi sahədə apardığı islahatlar platformamın əsas qayəsidir" deyən Elnur Allahverdiyev ölkəmizin beynəlxalq aləmdə qüdrətli dövlət kimi mövqeyini möhkəmləndirdiyindən, adı ən çox islahatlar aparan ölkələr sırasında olduğundan, bir gənc kimi qürur duyduğunu bildirib. Gələcək işləri ilə bağlı məlumat verərək dünya iqtisadi sisteminə uğurla inteqrasiya edən Azərbaycanda həyata keçirilən iqtisadi islahatların tətbiqində iştirak etməyə çalışacağını vurğulayıb.

Seçicilərdən Ağahüseyn Qurbanov, Hacı Miretibar və başqaları çıxış edərək, namizədə uğurlar arzulayaraq, 9 fevralda YAP-ın namizədi Elnur Allahverdiyevə etimad göstərəcəklərini bildiriblər.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Sevinc Fətəliyevanın Suraxanı rayonunda yaşayan müxtəlif xalqların nümayəndələrilə görüşü keçirilib





***Suraxanı rayonunda yaşayan müxtəlif xalqların nümayəndələrinin müraciətinə uyğun olaraq, 30 saylı Suraxanı I Seçki Dairəsindən Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Sevinc Fətəliyevanın görüşü baş tutub.***

Görüşdə çıxış edən Sevinc Fətəliyeva ölkəmizdəki multikulturalizm mühitinin müxtəlif xalqların və etnik qrupların dilinin, dininin və ümumilikdə, mədəniyyətinin inkişafına geniş imkanlar yaratdığını bildirib. Müxtəlif dinləri və mədəniyyətləri təmsil edən bir çox xalqların dostluq və qardaşlıq şəraitində Azərbaycanda dinc yanaşı yaşamasının dövlət siyasətinin məntiqi nəticəsi olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, tolerantlığı və multikulturalizmi ilə dünya üçün nümunəyə çevrilən Azərbaycanda müxtəlif dini qurum, birlik və icmaların fəaliyyət göstərmələri tarixən mövcud olan dini və milli tolerantlığın nümunəsi kimi təqdim olunan qədim ibadət ocaqlarının qorunub saxlanması ölkəmizdə hökm sürən bu mühiti əsaslandıran amillərdəndir. Bakı şəhəri Dağ Yəhudiləri Dini İcması, Azərbaycan Respublikasının Alban-Udi Xristian Dini İcması, Gürcü Yəhudilərinin Bakı Dini İcması və s. onlarla belə qurumlar rusların, malakanların, yəhudilərin, tatların və digər xalqların sərbəst yaşama və dinc həyat tərzi sürməsi üçün geniş imkanların yaradıldığından xəbər verir.

Görüşdə çıxış edən icma üzvləri 9 fevral tarixində parlament seçkilərində hamılıqla məntəqələrə gedərək, YAP-ın deputatlığa namizədi Sevinc Fətəliyevaya səs verəcəklərini bildiriblər.

Görüşün sonunda seçiciləri maraqlandıran suallar cavablandırılıb.

***Zümrüd BAYRAMOVA***

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*

## Yeni Azərbaycan Partiyasının namizədi Cavid Osmanov seçiciləri ilə görüşlərini davam etdirir

***9** fevral tarixində keçiriləcək parlament seçkilərində Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Cavid Osmanov təbliğat-təşviqat kampaniyası çərçivəsində seçiciləri ilə növbəti görüşlərini Ağdaş rayonunun Aşağı Nemətabad və Yuxarı Nemətabad kəndlərində keçirib.*





Görüşdən əvvəl Cavid Osmanov və təbliğat qrupunun üzvləri el arasında "Babalar piri" kimi tanınan Seyid Pir Həsən baba pirini ziyarət etmişlər.

Hər iki görüşdə çıxış edən Yeni Azərbaycan Partiyasının namizədi Cavid Osmanov seçicilərinə dərin minnətdarlığını bildirib. Hər zaman tutduğu siyasi xəttə - banisi Ümummilli Liderimiz Heydər Əliyev, Sədri Prezident İlham Əliyev olan Yeni Azərbaycan Partiyasına sadiq qalacağına, bundan sonra da bu siyasi xəttə sədaqətlə xidmət edəcəyinə söz verib. 9 fevralda keçiriləcək Milli Məclisə seçkilərdə ona yenidən böyük etimad göstərildiyini vurğulayan Cavid Osmanov göstərilən bu etimada görə Yeni Azərbaycan Partiyasına, partiyanın Sədri, ölkə Prezidenti İlham Əliyevə dərin minnətdarlığını bildirərək, bu şərəfli və məsuliyyətli yolda bundan sonra da dövlətimizin qarşıya qoyduğu vəzifələrin xalqın, cəmiyyətin istəyinə uyğun layiqincə yerinə yetirəcəyini bildirib. Eyni zamanda, tutduğu vəzifələrdən asılı olmayaraq, sadə bir ağdaşlı kimi qalacağını və daim ağdaşlıların yanında olacağını görüş iştirakçılarının diqqətinə çatdırıb. Bildirib ki, 750 minə yaxın üzvü olan Yeni Azərbaycan Partiyası, nəinki ölkəmizin, hətta Cənubi Qafqaz regionunun ən güclü siyasi təşkilatıdır: "Sıralarında 18 minə yaxın üzvü birləşdirən rayon təşkilatımız isə partiyamızın ən böyük rayon təşkilatlarındandır. Bu isə, onu göstərir ki, ağdaşlıların partiyamıza, onun Sədri, Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi siyasi xəttə inamı çox güclüdür. Yeni Azərbaycan Partiyasının seçkilərə "Daha güclü Azərbaycan naminə" böyük proqramla gedir: "Cavid Osmanov Prezident İlham Əliyevin ölkədə həyata keçirdiyi dərin, sistemli və ardıcıl islahatlar kursu, onun əsas istiqamətləri və reallaşdırılma mexanizmləri haqqında ətraflı məlumat verib. Qeyd edib ki, bu siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onun sosial rifahı dayanır. Elə bu səbəbdən də, ölkəmizdə səfərbər olunmuş cəmiyyət və vətəndaş həmrəyliyi hökm sürür. Xalq, birmənalı olaraq, Prezident İlham Əliyevin həm daxili, həm də xarici siyasətini müdafiə edir. Dövlət başçısı da yalnız milli maraqlara söykənən müstəqil siyasət həyata keçirir.

Keçirilən hər iki görüşdə təbliğat qrupunun üzvü Sevgili İbrahimova çıxış edərək, seçki günü seçiciləri fəal olmağa və Daha güclü Azərbaycan naminə Yeni Azərbaycan Partiyasının namizədi Cavid Osmanova yekdilliklə səs verməyə çağırıb.

Aşağı Nemətabad kəndində keçirilən görüşdə çıxış edən seçicilər Vəkil İsmayılov, Alim Qasımov, Məhəmməd Ömərov, Sənubər Məmmədova, Xatın Məmmədova, Əli Əkbərov, Yuxarı Nemətabad kəndindəki görüşdə çıxış edən seçicilər Bayram Mustafayev, Bilqeyis Muxtarova və Mustafa Mustafayev bildiriblər ki, bu kəndlərin sakinləri Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti İlham Əliyevin yürütdüyü daxili və xarici siyasəti bəyənərək dəstəkləyirlər və keçiriləcək Milli Məclisə seçkilərdə də Yeni Azərbaycan Partiyasının namizədi və Ağdaşın fəxri Cavid Osmanova yekdilliklə səs verəcəklər.

**ZÜMRÜD BAYRAMOVA**

## Aydın Hüseynov Çeyildağ seçiciləri ilə görüşüb



***Y**eni Azərbaycan Partiyası tərəfindən deputatlığa namizədliyi 11 saylı Qaradağ Seçki Dairəsindən irəli sürülmüş Aydın Hüseynovun seçkiqabağı təbliğat-təşviqat kampaniyası davam edir. Növbəti görüş Çeyildağ qəsəbəsində keçirilib.*



Deputatlığa namizəd Aydın Hüseynov seçicilər qarşısında çıxış edərək, təmsil olunduğu partiyanın fəaliyyəti barədə ətraflı məlumat verdi. Qeyd edib ki, xalqımızın arzu və istəyini uğurlu fəaliyyəti ilə doğruldan Yeni Azərbaycan Partiyası bu seçkilərdə də seçicilərin yekdil səsini qazanmaq istəyindədir: "Çünki müstəqilliyimizin durmadan inkişafı və xalqımızın rifahının getdikcə yaxşılaşması partiyamızın qarşısına qoyduğu ən ümdə məsələlərdən biridir. Bu səbəbdən də, "Daha güclü Azərbaycan naminə!" devizi ilə seçkilərə qatılmaqla, seçicilərə belə müraciət edib: "Azərbaycanın gələcəyinə səs ver!".

A.Hüseynov onu da qeyd edib ki, YAP iqtidar partiyası kimi uğurlu fəaliyyəti ilə seçilir: "Belə ki, Azərbaycanın dünyanın ən islahatçı ölkələri sırasında layiqli yer tutması təmin edilib. Ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının qorunması əsas amalımız olub. Əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində ciddi addımlar atılıb. Uğurlu xarici siyasət Azərbaycanın beynəlxalq birlikdə nüfuzunu daha da artırıb. Ümumiyyətlə, respublikamızın bütün sahələr üzrə inkişafı təmin olunub. Bununla yanaşı, partiyamız Azərbaycanın durmadan inkişafına nail olmaq istəyindədir".

Qəsəbə sakinləri son illər ölkəmizdə, o cümlədən, Qaradağ rayonunda həyata keçirilən çoxsaylı tədbirləri yüksək qiymətləndirməklə, fikir və təkliflərini də bildirib, 9 fevralda keçiriləcək parlament seçkilərində "Daha güclü Azərbaycan naminə!" devizi ilə YAP-ın namizədlərinə səs verəcəklərini söyləyiblər.

**RƏFİQƏ HÜSEYNOVA**

## Gəncədə "Musa Quliyev - O, Sizin səsinizdir" filminin təqdimatı keçirilib





Gəncənin Şeyxzamanlı qəsəbəsində Milli Məclisin deputatı, 40 saylı Kəpəz ikinci (Gəncə) Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Musa Quliyevin seçicilərlə növbəti görüşü keçirilib. Geniş tərkibdə keçirilən bu görüşdə Musa Quliyevin parlament fəaliyyəti, qanun yaradıcılığı sahəsində gördüyü işlər, beynəlxalq təşkilatlarda göstərdiyi fəaliyyət və Gəncədən olan seçiciləri ilə görüşləri barədə məlumatları əks etdirən hesabat xarakterli filmin təqdimatı keçirilib. Film seçicilər tərəfindən böyük maraqla qarşılanıb.

Tədbirdə çıxış edən Gəncə ziyalıları, alimlər, Qarabağ müharibəsi veteranları, əmək veteranları, seçicilər Musa Quliyevin xidmətlərindən danışıb, onun sonrakı fəaliyyətində də, qanun yaradıcılığı sahəsində, Gəncənin inkişafı naminə daha önəmli işlər görə biləcəyinə əminliklərini ifadə ediblər.

Eyni zamanda görüşdə Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının idarə heyətinin üzvü, Nəsimi rayonu Ağsaqqallar Şurasının sədri Aydın Heydərov çıxış edərək Musa Quliyevi Yeni Azərbaycan Partiyasının yarandığı ilk günlərdən etibarən yaxından tanıdığını, onun, dövlətçiliyə sadiq biri olduğunu vurğulayıb və bütün seçiciləri Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə dəvət edib. Musa Quliyevin silsilə görüşləri davam edəcək.

# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*

## QUSAR

51 saylı Qusar Seçki Dairəsi üzrə Yeni Azərbaycan Partiyasının namizədi Azər Badamov təbliğat-təşviqat kampaniyası çərçivəsində Qusar rayonunun Kuzun, Zindanmuruq,





Cağar və Cətkün kəndlərində seçicilərlə görüş keçirib.

Görüşləri YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov açaraq, ölkə Prezidenti İlham Əliyevin respublikamızda həyata keçirdiyi uğurlu daxili və xarici siyasətdən, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Azərbaycanda həyata keçirdiyi layihələrdən danışıb. Daha sonra seçiciləri partiyanın namizədi Azər Badamova səs verməyə çağırıb.

Görüşdə deputatlığa namizəd Azər Badamov çıxış edərək, Milli Məclisin deputatı olduğu dövrdə fəaliyyəti barədə seçicilərə ətraflı məlumat verib.

Görüşlərdə çıxış edən kənd sakinləri Şair Kiçibəyov, Sudya Mançarov, Bəhlul İbrahimov, Telman Sultanov, Zalikə Almasova və Novruz Saydumov Yeni Azərbaycan Partiyasının siyasi xəttini dəstəklədiklərini və deputatlığa namizəd Azər Badamova yekdilliklə səs verəcəklərini bildiriblər.

***

Yeni Azərbaycan Partiyasının namizədi Azər Badamovun seçicilərlə görüşləri davam edir. 51 saylı Qusar Seçki Dairəsi üzrə Yeni Azərbaycan Partiyasının namizədi Azər Badamovun növbəti görüşü rayonun Əniğ kənd seçiciləri ilə keçirilib.



Böyük ruh yüksəkliyi ilə keçən görüşdə Azər Badamov seçicilərə Prezident İlham Əliyevin məqsədyönlü siyasətindən, eləcə də, ölkədə gedən kadr, iqtisadi-siyasi islahatlardan danışıb. V çağırış Azərbaycan Respublikasının Milli Məclisinin deputatı kimi, fəaliyyət göstərdiyi müddət ərzində, öhdəsinə düşən vəzifəni ləyaqətlə yerinə yetirdiyini qeyd edən Azər Badamov yenidən ona etimad göstərilərsə, daha böyük qüvvə ilə çalışacağını bildirib.

Azər Badamov seçiciləri maraqlandıran sualları cavablandırıb, onları narahat edən problemlə bağlı aidiyyatı qurumlar qarşısında məsələ qaldıracağını bildirib.

Görüşlərdə çıxış edən kənd sakinləri Yeni Azərbaycan Partiyasının siyasi xəttini dəstəkləyərək deputatlığa namizəd Azər Badamova yekdilliklə səs verəcəklərini bildiriblər.

## SABUNÇU

Dünən 27 saylı Sabunçu ikinci Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Əliabbas Salahzadənin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Kürdəxanı qəsəbə ağsaqqallarını ziyarət etmiş, onların xeyir-duasını almış, tövsiyə və təkliflərini dinləmişdir.





Görüşdə YAP Sabunçu rayon təşkilatının aparat rəhbəri Rəşad Abbasəliyev Yeni Azərbaycan Partiyası Sabunçu rayon təşkilatının partiyanın “Daha güclü Azərbaycan naminə!” şüarını rəhbər tutaraq, namizədlərin təbliğatının fəal şəkildə həyata keçirildiyini bildirib və parlament seçkilərində YAP-ın namizədi Əliabbas Salahzadəyə səs verməyə çağırıb.

Deputatlığa namizəd Əliabbas Salahzadə görüşdə öz seçki platforması barədə seçicilərə geniş məlumat verib. Ə.Salahzadə seçicilərin mütləq əksəriyyətinin səsini qazanacağına inandığını və deputat seçiləcəyi təqdirdə, verdiyi bütün vədlərin həyata keçirilməsinə çalışacağını deyib. O, seçkilərdə qalib gələcəyi təqdirdə, rayonun seçicilərinin etimadını doğrultmağa çalışacağını söyləyib.

Görüşdə çıxış edən ağsaqqallar bu seçkilərdə də YAP-ın qərarına dəstək verəcəklərini və Əliabbas Salahzadəyə səs verəcəklərini bildiriblər.

Görüşdə sakinləri maraqlandıran məsələlər barədə fikir mübadiləsi aparılıb.

## SƏBAİL

VI çağırış Milli Məclis seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində 29 saylı Səbail Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Aytən Hüseynovanın Səbail rayonu ərazisində sakinlərlə səyyar görüşləri davam edir.

Yanvarın 27-də YAP-ın namizədi Səbail rayon ərazisində məhəllələrdə və həyətlərdə sakinlərlə görüşüb səmimi söhbət edən A.Hüseynova seçicilərlə ölkəmizin ictimai-siyasi həyatında gedən proseslər, əhalinin rifah şəraiti və sakinləri narahat edən məişət problemləri haqqında danışıb. Seçiləcəyi təqdirdə, rayon ərazisində görəcəyi işlər haqqında sakinlərə məlumat verən YAP namizədi “Daha güclü Azərbaycan naminə!” hər kəsi ölkə başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin siyasətinin ətrafında daha da sıx birləşməyə və 9 fevral seçki günü fəal olmağa dəvət edib.





Sakinlər qarşıdan gələn parlament seçkilərində ölkə Prezidenti İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının namizədinə səs verəcəklərini bildiriblər.

## OĞUZ

Yanvarın 27-də 117 saylı Oğuz-Qəbələ Seçki Dairəsin-





dən deputatlığa namizəd Aqiyə Naxçıvanlı təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Filfilli və Xaçmaz kəndlərində seçicilərlə görüş keçirib.

**Ardı Səh. 13**

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*

Əvvəli Səh. 12

Keçirilən görüşdə deputatlığa namizədin vəkilləri çıxış edərək ölkədə gedən quruculuq işlərindən, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi altında qazanılan uğurlardan danışıblar. Görüşdə çıxış edən Aqiyə Naxçıvanlı namizədi olduğu Yeni Azərbaycan Partiyasının Seçki Platforması haqqında geniş məlumat verib.

Görüşlərdə kənd sakinləri Elza Gülməmmədova, Elçin Hacıyev, Arif İsayev, İbrahim Qocayev, Filfilli kəndindən seçicilər Füzuli Tağıyev, İlkin Ağayev, İlqar Məmmədov və başqaları çıxış edərək Prezident İlham Əliyev tərəfindən aparılan uğurlu daxili və xarici siyasəti dəstəklədiklərini və daim dövlət başçısı ətrafında sıx birləşdiklərini diqqətə çatdırıblar. Həmçinin, 9 fevralda keçiriləcək parlament seçkilərində deputatlığa namizəd Aqiyə Naxçıvanlıya dəstək verəcəklərini bildiriblər.

Görüşdə kənd sakinləri problemləri ilə bağlı məlumat veriblər. Sonda Aqiyə Naxçıvanlı növbəti dəfə seçiləcəyi təqdirdə, problemlərin həllinə çalışacağını bildirib.

### XAÇMAZ

YAP Xaçmaz rayon təşkilatı 9 fevral 2020-ci il tarixində keçiriləcək Milli Məclisə seçkilərinə Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Eldəniz Səlimov



Ağyazı, Buduq, Armudpadar, Hacıbəyli, Arzu, Suxtaqalaqışlaq və Vayoba kəndlərinin sakinləri ilə görüşlər keçirib.

Görüşlərdə 9 fevralda keçiriləcək parlament seçkiləri ilə bağlı təbliğat-təşviqat kampaniyasının uğurla keçdiyi, həmçinin, Yeni Azərbaycan Partiyasının 55 saylı Xaçmaz kənd Seçki Dairəsindən Milli Məclisə namizədi Eldəniz Səlimovun həyat və fəaliyyəti ilə bağlı seçicilərə məlumat verilib. Görüşlərdə çıxış edən seçicilər Yeni Azərbaycan Partiyasının "Gaha güclü Azərbaycan naminə!" şüarı ilə ölkəmizin uğurlu inkişafına səs verəcəklərini bildiriblər.



YAP-ın 55 saylı Xaçmaz kənd Seçki Dairəsindən namizəd Eldəniz Səlimov platforması barədə danışıb. O, kənd sakinlərinin ona səs verəcəyi və deputat seçiləcəyi təqdirdə, verdiyi bütün vədlərin həyata keçirilməsinə çalışacağını bildirib. Görüş iştirakçıları isə, mövcud problemlər barədə namizədə məlumat verib, təkliflər irəli sürüblər.

*Rövşən RƏSULOV*
*RƏFİQƏ KAMALQIZI*
*Nəzakət ƏLƏDİNQIZI*

## <u>DİN və Baş Prokurorluq:</u> Zamin Salayevin şərəf və ləyaqəti alçaldan böhtanlar yayması onun neqativ həyat təcrübəsinin təzahürüdür

***Azərbaycan Respublikasının Baş Prokurorluğu və Daxili İşlər Nazirliyi azadlıqdan məhrum edilmiş Salyan rayon sakininin guya polis əməkdaşı tərəfindən zorakılığa məruz qalması və özünü qadının müdafiəçisi kimi göstərmək istəyən digər bir sakinə işgəncə verilməsi barədə əsassız xəbərlərlə bağlı məlumat yayıb.***





Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, son günlər bəzi kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə ölkəmizdə sabitliyin pozulmasında maraqlı olan şəxslər tərəfindən qəsdən sağlamlığa ağır zərər vurma cinayətinə görə azadlıqdan məhrum edilmiş Salyan rayon sakini Aytəkin Abıyevanın guya polis əməkdaşı Həmzə Əzizov tərəfindən zorakılığa məruz qalması və özünü Aytəkin Abıyevanın müdafiəçisi kimi göstərmək istəyən həmin rayonun sakini Zamin Salayevə (Əlizamin Salayev) işgəncə verilməsi barədə məlumatlar yayılır. Əslində heç bir əsası olmayan, reallıqdan tamamilə uzaq, vətəndaşlarda dövlət qurumlarına inamsızlıq yaratmaq niyyəti güdən və qərəzli şəkildə uydurulan bu cür məlumatlarla bağlı bildirilir ki, 2019-cu il avqustun 8-də qohumu ilə rəsmi nikaha daxil olub ailə həyatı qurmuş Aytəkin Abıyeva əri ilə birgə Bakı şəhərinə köçüb və bundan on gün sonra adı istintaqa məlum olan keçmiş sevgilisinə zəng edib onunla Salyan şəhərinə gəlib və dörd gün müddətində müxtəlif ünvanlarda qalıblar.

Həyat yoldaşının polisə müraciəti əsasında avqustun 22-də tapılıb ailəsinə qaytarılan, daha sonra valideynlərinin yanına qayıdan Aytəkin Abıyeva yeni tanış olduğu başqa bir şəxslə telefon əlaqəsi saxladığı üçün anası tərəfindən tənbeh edildiyindən sərbəst yaşamaq qərarına gələrək 2019-cu il sentyabrın 10-da xəbər vermədən evdən gedib. Aytəkin Abıyevanın itkin düşməsi barədə ailə üzvlərinin Daxili İşlər Nazirliyinin 102 Xidmətinə müraciəti əsasında həmin gün o, polis əməkdaşları tərəfindən tapılıb valideynlərinə təhvil verilib.

Bir neçə gün evlərində qalan Aytəkin Abıyeva 2019-cu il sentyabrın 16-da yenidən evdən qaçıb əvvəldən yaxın münasibətdə olduğu digər tanışı ilə görüşüb. Ertəsi gün onun itkin düşməsi barədə valideynləri yenidən Salyan Rayon Polis Şöbəsinə müraciət ediblər. Müvafiq araşdırmanın aparılması baş təhqiqatçı Həmzə Əzizova tapşırılıb. Həyata keçirilmiş axtarış tədbirləri ilə Aytəkin Abıyevanın olduğu yer müəyyənləşdirilib və o, saxlanılıb qardaşına təhvil verilərkən buna etiraz olaraq üzərindəki bıçaqla Həmzə Əzizova həyat üçün təhlükəli olan ağır xəsarət yetirib.

Fakt üzrə Salyan Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 29-cu və 120.2.3-cü (zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar onun özünü və ya yaxın qohumlarını öldürməyə cəhd) maddələri ilə cinayət işi başlanılıb və Aytəkin Abıyeva məhkəmənin qərarı ilə şübhəli qismində tutulub.

Aytəkin Abıyeva müdafiəçisinin iştirakı ilə verdiyi ifadələrdə ittiham üzrə özünü təqsirli bilib, cinayəti törətdiyi günədək Həmzə Əzizovla heç bir münasibətinin olmadığını və hər hansı polis əməkdaşı tərəfindən ona qarşı qanunsuz hərəkətə yol verilmədiyini göstərib.

Onun həmin cinayət əməlini törətməsi özünün səmimi ifadələri ilə yanaşı, istintaq zamanı toplanmış, bir-birini tamamlayan təkzibedilməz sübutlarla, o cümlədən hadisəni görən ailə üzvlərinin və digər çoxsaylı şahidlərin ifadələri, mobil telefon danışıqları barədə məlumatlar və ekspertiza rəyləri ilə tam təsdiqlənib.

Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Aytəkin Abıyevanın əməli Cinayət Məcəlləsinin 126.2.2-ci (qəsdən sağlamlığa ağır zərər vurma) maddəsinə təvsif olunub və o, bu cinayətdə təqsirli bilinərək 7 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib. Qeyd olunmalıdır ki, özünü Aytəkin Abıyevanın müdafiəçisi kimi göstərməyə cəhd edən Zamin Salayev xəbər verildiyi kimi, 2020-ci il yanvarın 13-də Bakı şəhərində ictimai qaydanı pozan hərəkətlərə yol verdiyinə və bununla əlaqədar polis işçilərinin qanuni tələblərinə qəsdən tabe olmadığına görə məhkəmənin qərarı ilə inzibati qaydada həbs edilib.

Saxlanılan zaman bütün prosessual hüquqları təmin olunan Zamin Salayev vəkili və ailə üzvləri ilə görüşüb. Ombudsman Aparatının əməkdaşları müvəqqəti saxlama yerində ona baş çəkiblər.

Eyni zamanda, Daxili İşlər Nazirliyi tərəfindən aparılan xidməti yoxlama prosesində Zamin Salayev, polis əməkdaşları tərəfindən hər hansı işgəncəyə və zorakılığa məruz qalmadığını bildirib. Bu xüsusat nazirliyin təşəbbüsü ilə Zamin Salayevin DİN-in Hospitalında keçirilmiş tibbi müayinəsi ilə təsdiqlənib.

Törətdiyi cinayətlərə görə əvvəllər də üç dəfə məhkumluq həyatı yaşayan, spirtli içki aludəçisi olan Zamin Salayevin Aytəkin Abıyevanın təzyiqə məruz qalması və hətta zorlanması barədə şərəf və ləyaqəti alçaldan böhtanlar yayması da qərəzdən başqa bir şey deyil və onun neqativ həyat təcrübəsinin və dünyagörüşünün təzahürüdür.



### 2020-2021-ci tədris ilində təqaüd alan tələbələrin sayı 50 faizə çatdırılacaq

"Ali təhsilin əlçatanlığının artırılması, tələbələrin sosial müdafiəsinin yaxşılaşdırılması, ölkədə yüksəkixtisaslı, peşəkar kadrlar hazırlanması, ali təhsildə rəqabət mühitinin formalaşdırılması sahəsində ölkə Prezidenti tərəfindən əhəmiyyətli qərarlar qəbul olunub."

Bunu Təhsil naziri Ceyhun Bayramov 2019-cu ilin yekunlarına və 2020-ci ilin hədəflərinə həsr edilən mətbuat konfransında deyib. Nazir bildirib ki, 2019-cu ildə dövlət hesabına təhsil alan tələbələrin sayı 66 faiz artıb. Belə ki, 2018-ci ildə 12 min 300 nəfər dövlət hesabına ali təhsil müəssisələrinə qəbul olunubsa, 2019-cu ildə bu rəqəm 20 min 500-ə çatdırılıb. Ceyhun Bayramov diqqətə çatdırıb ki, təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı Sərəncama əsasən, dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayı artırılıb. 2020-2021-ci tədris ilində isə təqaüd alan tələbələrin sayının 50 faizə çatdırılması nəzərdə tutulur.

### AZAL Bakıdan Pekinə aviareysləri müvəqqəti dayandırır

"Azərbaycan Hava Yolları" QSC (AZAL) Bakıdan Pekinə aviareysləri müvəqqəti dayandıracaq. Bu barədə AZƏRTAC-a AZAL-dan bildirilib. Buna səbəb Çində qeyd olunacaq bayramlarla əlaqədar aviareyslərə tələbatın aşağı düşməsidir. Uçuşlar yanvarın 30-dək davam etdiriləcək. Martın 8-nə qədər isə Bakı-Pekin-Bakı marşrutu üzrə uçuşlar müvəqqəti yerinə yetirilməyəcək.



# Avropadan pənah umanlar...

## Gültəkin Hacıbəylinin “milçəköldürənləri” kimlərdir?

***B**ir müdrük kəlamda deyilir ki, “hansı tərəfə gedəcəyini bilmirsənsə, hansı yolla getməyinin heç bir əhəmiyyəti yoxdur”. Siyasətin çirkin iş olduğu haqqında da belə deyirlər ki, “əslində, siyasət çirkin deyil, onunla çirkin insanlar məşğul olanda, çirkin olur”.*

Bu gün dağıdıcı müxalifət düşərgəsində AXCP sədri Əli Kərimlinin “danışan dili” olan “Milli Şura”nın koordinasiya mərkəzinin üzvü Gültəkin Hacıbəyli siyasətə “çirkin bir yoldur” deməklə, özünün çirkin siyasətbazlar olduğunu dəfələrlə göstərib.

“Ən böyük şər oğurluq, hətta qətl də deyil, satqınlıqdır”. Boris Akuninin dediyi bu fikir, məhz Ə.Kərimli, Cəmil Həsənli, G.Hacıbəyli və... satqınlıq edənlər, şər-böhtan deyənlərin üstünə tam ölçülüb desək, yanılmarıq. Çünki onlar üçün hər şey - satlıq maldır. Bu, həqiqətən də, belədir. Əxlaqsızlar, mənəviyyatsızlar və dövlətçilik maraqlarımızı satanlara nə ad vermək olar? Ömər Xəyyama görə, ‘’insanın ruhu və əxlaqı nə qədər alçaq olarsa, burnunu bir o qədər dik tutar”. G.Hacıbəylinin satqın zehniyyəti maliyyə-pul arqumentidir və onun üçün hər şey - satlıq maldır. G.Hacıbəyli zamanında Avropa Şurasında Azərbaycan dövlətinin bu hakimiyyətinin mövqeyini dəstəkləyirdisə, bu gün onun belə bir mötəbər qurumunda, nəinki kürsüsü, heç tozu da qalmayıb. Çünki onun daima marağında olan və sui-istifadə etdiyi deputat kreslosu təmin olunmadığına görə özünü “Milli Şura”da tapması buna əsas verir. Reneqat, satqın və xəyanətkarlıq simvolu kimi, həm də ailəsinə qarşı xilaf çıxanın başqa yolu da qalmamışdı. Avropa qurumunun seçkiərəfəsi ölkəmizdə olmasından istifadə edən G.Hacıbəyli adət etdiyi siyasi “məzlum” görkəminə düşməklə, erməni xislətinə sadiqlik ənənələrini qorumaq kimi düşünməyə rəvac verir.

### Bəs nə oldu, Gültəkin..?

Bu günlərdə sözügedən görüş əsnasında AŞPA-nın seçki missiyası ilə görüşdə, məhz dövlətçilik maraqlarına qarşı sifarişli siyasət həyata keçirən



partiyalar və qurumlar iştirak ediblər. Xüsusilə, də destruktiv düşərgənin lider satqını AXCP sədri Ə.Kərimli və C.Həsənli, “primadonnası”, harada aş, orada baş olan “Milli Şura”nın koordinasiya mərkəzinin üzvü G.Hacıbəyli AŞPA-nı görər-görməz, dərhal üz-gözlərini cırıb, yaxalarını dartıblar.

Maraqlıdır ki, görəsən, AŞPA-nın seçki missiyası seçkiləri “boykot” edən Ə.Kərimliyə, G.Hacıbəyliyə sual edibmi ki, onların və yandaşlarının bu addımları mövcud situasiyaya heç bir təsir göstərə bilməz? Yaxud anlada bilibmi ki, həmin “taktika”, əslində, onların zəifliklərinin və uğursuzluqlarının məntiqi sübutudur? İnanırıq ki, onlara belə bir sual verilməyib, əksinə, Azərbaycanın demokratik seçki mühitinə qarşı əsassız, məntiqsiz və sübutsuz-dəlilsiz “kompromatlar” toplanılıb ki, sonradan, yəni seçkidən sonra dərhal digər bir Avropa qurumu - ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu həmin “kompromatları” qərəzlə xalqın üzünə oxusun. Amma bütün bunlar əbəsdir. Çünki xalq kimin kim olduğunu çoxdan bilir və bundan sonra da biləcək.

### 180 dərəcə!

Əslində, hər addımda ikiüzlülüyü, riyakarlığı ilə tanınan, parlamentin üzvü olanda dövlətin imtiyazlarından gen-bol istifadə edərək, tam komfort şəraitində yaşayanda, tamamilə başqa cür danışırdı. G.Hacıbəylinin o zamanlar, başda Ə.Kərimli olmaqla, dağıdıcı müxalifət düşərgəsinin başbilənlərini yerdən-yerə vurmağını da heç kim unutmayıb. Ancaq elə ki, deputat seçilmədi, mandatdan məhrum oldu G.Hacıbəyli, hətta öz keçmiş həyat yoldaşının da etiraf etdiyi kimi, 180 dərəcə dəyişdi. Dünənə qədər YAP-çı olan bir medalın iki üzü olan G.Hacıbəyli deputat seçilmədiyi halda, dönüb oldu müxalifətçi və AXCP sədri Ə.Kərimliyə “sadiqliyini” nümayiş etdirərək, başladı sosial şəbəkələrdə söyüş söyməyə. Beləliklə də, antimilli ünsürlərin toplandığı “Milli Şura”da lövbər saldı. Necə deyərlər, qazan dığırlanıb, qapağını tapdığı kimi, G.Hacıbəyli də layiq olduğu satqınlar yuvası olan “Milli Şura”da yer saldı.

### Natiq Cəfərli: “Gültəkin Hacıbəyli kimilər cəmiyyətimizdə ikrahla qarşılanırlar”

Bu günlərdə “ReAL” partiyasının icra katibi Natiq Cəfərlinin G.Hacıbəylinin parlament seçkilərinə qatılmaq iddiasında olması və AŞPA-nı görər-görməz, Azərbaycana qarşı şər-böhtan yayması onun iç üzünü göstərir. Doğrudan da, adamın yazığı gəlir buna. Təpədən-dırnağa qədər bataqlığa batmış “Milli Şura”nın dolanbaclarında veyillənən, riyakarlığı, satqınlığı və xəbisliyi ilə tanınan, hər addımda özünü “Milli Şura”nın “əzəli” və “əbədi”, “cəfakeş” üzvü adlandıran, müxalifətçi libası altında siyasi meydanda əsl çılpaqlıq nümayiş etdirən, AXCP sədri Ə.Kərimlinin tapşırıq və sifarişlərini icra edən G.Hacıbəylinin Avropa Şurasından “Milli Şura”ya hoppanmasının səbəblərindən biri də onun müəyyən olunmuş dəyərlərə xəyanət etməsinin nəticəsidir. Ona görə də, bu gün Avropa Şurasında deyil, “Milli Şura”da “milçək qovalamaqla” məşğuldur, “milçək öldürəni” Ə.Kərimli və “ehtiyat milçək öldürəni” C.Həsənlidir.

***Rəfiqə HÜSEYNOVA***

# Seçkiərəfəsi növbəti qarşıdurma

## Bu dəfə “VİP” - “REAL” qarşıdurması

***D**ağıdıcı düşərgə “liderləri” ölkədə keçirilən hər seçkiərəfəsi nəsə “yenilik” etmək istəkləri ancaq qarşıdurma ilə başlayır. Bu da, səbəbsiz deyil. Necə deyərlər, aşığın sözü qurtaranda, “yarım-yarım” dediyi kimi, bir-birləri ilə zid-diyyətlər aparmaqla, olmayan varlıqlarını da*



*nümayiş etdirmək istəyirlər. Növbəti qarşıdurma da “VİP”-”REAL” arasında baş verib, bu da səbəbsiz deyil. Belə ki, qarşıdan gələn parlament seçkilərində Vətəndaş və İnkişaf Partiyasının təmsil olunmayacağı haqqında qərar bəlli idi. Hətta müxalifət partiyasının sədri Əli Əliyev bir neçə dəfə mətbuata, eləcə də, sosial şəbəkələrə çıxaraq qəti şəkildə seçkilərdə iştirak etməyəcəyini bəyan etmişdi. Ancaq bu günlərdə məlum oldu ki, “VİP” sədri seçkilərə qatılmaq qərarını verib, müəyyən olunmuş DSK tərəfindən onun namizədliyi belə qeydə alınıb və təşviqatını da aparır.*

### Bu təşviqatdan rəqabətdən daha çox, siyasi savaş qoxusu gəlir

Ə.Əliyevin qəfil qərar verib, imza toplaması isə, artıq onun düşərgənin digər cinahında təmsil olunması və təşviqata başlaması rəqiblərini çətin vəziyyətə salıb, hətta qıcıqlandırıb. Məsələ ondadır ki, müəyyən olunmuş DSK-da “VİP” sədrinin rəqibləri “REAL” partiyasının təmsilçiləridir. Onlar Vəkillər Kollegiyasının üzvü Cavad Cavadlı və bir müddət əvvəl, partiyada İlqar Məmmədovun qərarları əleyhinə çıxan Azər Qasımlıdır. Yəni həm A.Qasımlının, həm də C.Cavadlının namizədliyi DSK tərəfindən qeydə alınmaqla, təşviqata başlanması çox böyük qalmaqalla yanaşı, daha çox siyasi savaşın olacağını aydın şəkildə göstərir.

### Əli Əliyevin bu qərarı müxalifət düşərgəsində seçkidən sonra onun başını çox ağrıdacaq

Daha bir maraqlı məqam isə, parlament seçkilərini, öz təbirincə, “boykot” edəcəyini bəyan etmiş Ə.Kərimli VİP sədrinin daha öncələr seçkilərə getməmək qərarına dəstək göstərmişdi. Lakin sonradan onun fikrini dəyişməsi Kərimlinin “facebook”dakı söyüş qrupları tərəfindən hədəfə alındı. Bu gün artıq cəbhəçilər də “REAL”çılar kimi Ə.Əliyevi kəskin şəkildə təhqir obyektinə çeviriblər. Ümumilikdə götürdükdə isə, “VİP” sədrinin seçkilərə qatılmaq qərarını verməsi, daha dəqiq desək, seçimini dəyişməsi onun öz səhvini başa düşməsi anlamını daşıyır. Hər halda, ictimai-siyasi proseslərin əsas amili olan seçkilərdə iştirak siyasi fəallığın da göstəricisi kimi başa düşülə bilər. Görünür, Ə.Əliyevin bu qərarı müxalifət düşərgəsində onun başını çox ağrıdacaq.

***Rövşən RƏSULOV***

# Bakıda evlərdən oğurluq edən iki qardaşın digər cinayətləri də müəyyənləşib



**O**ğurluq etdiyinə görə tutulmuş Qazax rayon sakinləri olan iki yeniyetmə qardaşın ətrafında Xətai Rayon Polis İdarəsinin 35-ci və 37-ci polis şöbələrinin əməkdaşları tərəfindən aparılmış əməliyyat tədbirləri ilə onların rayon ərazisindəki daha üç evdən 6300 manat, 1500 ABŞ dolları məbləğində pul və 15 min manat dəyərində qızıl-zinət və məişət əşyaları oğurladıqları müəyyən olunub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, faktla bağlı araşdırmalar davam etdirilir.

## Bərdədə mikroavtobus yanıb

**B**ərdə rayonunda “Mercedes” markalı mikroavtobus yanıb. Fövqəladə Hallar Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, nəticədə mikroavtobusun idarəetmə lövhəsi və salonu yanıb. Avtomobilin qalan hissəsi yanğından mühafizə olunub. Alov yanğından mühafizə bölmələri tərəfindən söndürülüb.



# Keçmiş məhkumlar evdən pul və qızıl-zinət əşyaları oğurlayıblar

**Y**anvarın 24-də Nəsimi rayonu ərazisindəki evlərin birindən 250 manat, 250 ABŞ dolları və 1000 manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuşlar - T.Cəfərov və Sabirabad rayon sakini P.Quliyev Binəqədi Rayon Polis İdarəsinin 6-cı polis bölməsi və Nəsimi Rayon Polis İdarəsinin 21-ci polis bölməsi əməkdaşlarının birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıblar. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, T.Cəfərovun ətrafında aparılmış əməliyyat tədbirləri ilə onun Qax rayon sakini S.Mürsəlov və digər bir nəfərlə birgə Binəqədi rayonu ərazisindəki bir evdən televizor oğurlaması da müəyyən edilib. Davam etdirilən tədbirlərlə S.Mürsəlov da saxlanılıb. Hadisə ilə bağlı araşdırmalar davam etdirilir.

# Şəki sakininin evindən külli miqdarda narkotik vasitələr aşkarlanıb

**N**arkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxs Şəki Şəhər-Rayon Polis Şöbəsi əməkdaşlarının həyata keçirdikləri uğurlu əməliyyat-axtarış tədbirləri nəticəsində aşkarlanaraq məsuliyyətə cəlb edilib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Şəki regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, şöbə əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri ilə Şəki şəhər sakini 53 yaşlı Tərlan Vahabov şübhəli şəxs qismində saxlanılıb. Onun şəhər ərazisində yaşadığı evə baxış zamanı oradan külli miqdarda - 164 qramdan artıq kustar üsulla hazırlanmış tiryək, 28 qrama yaxın heroin, həmçinin Azərbaycan Respublikasının müvafiq qanunu ilə təsdiq edilmiş “Güclü təsir edən maddələrin və onların külli miqdarının Siyahısı”na daxil olan 110 ədəd “Tramadol” həbi və 1 kiloqramdan artıq qurudulmuş marixuana aşkarlanaraq maddi sübut kimi götürülüb.

# Bakcell növbəti dəfə Milli KSM Mükafatının qalibidir






***Bakcell şirkəti 2019-cu il ərzində həyata keçirdiyi korporativ sosial məsuliyyət fəaliyyətinə görə "Milli KSM Mükafatı 2019? mükafatına layiq görülüb. "Bakcell"in 2010-cu ildən başlayaraq "Azərbaycana Birgə Yardım" (UAFA) təşkilatı ilə birgə həyata keçirdiyi "İncəsənət vasitəsilə ünsiyyət" layihəsi "Milli KSM Mükafatı 2019? ilə təltif olunub.***

Korporativ sosial məsuliyyət (KSM) layihələrinin təşviqi üzrə dövlət siyasətinin və Heydər Əliyev Fondunun həyata keçirdiyi sosial layihələrin davamı olaraq Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası və PROAKTİV PR Agentliyi tərəfindən təşkil olunan "Milli KSM Mükafatı 2019" müsabiqəsinə Azərbaycanda fəaliyyət göstərən beynəlxalq və milli şirkətlər son bir il ərzində həyata keçirdiyi KSM layihələrini təqdim edib. Müsabiqəyə təqdim olunan layihələr BMT-nin Baş Assambleyası tərəfindən qəbul edilən Davamlı İnkişaf Məqsədləri əsasında müvafiq komissiya tərəfindən qiymətləndirilib.

Qeyd edək ki, Münsiflər Heyətində İqtisadiyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, "ASAN xidmət", "ABAD", Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, Gənclər Təşkilatları Milli Şurası, KSM Türkiyə və "CSR Azerbaijan" təşkilatları təmsil olunub. Nəticədə, müsabiqədə iştirak edən 34 layihədən 7 layihə qalib elan edilib.

"Qürurla demək istərdim ki, Bakcell şirkətinin həyata keçirdiyi korporativ sosial məsuliyyət proqramı ölkəmizdə ilk və ən uzunömürlü KSM layihələrindən biridir. Təməli 2009-cu ildə qoyulmuş "Bakcell Stars" KSM proqramı çərçivəsində həyata keçirilən layihələr bu günə qədər minlərlə insanı əhatə edib. "Milli KSM mükafatı 2019" mükafatına layiq görülən "İncəsənət vasitəsilə ünsiyyət" layihəsinin artıq 10 yaşı var. Bu layihənin xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə inteqrasiya olunmasında böyük rolu var", deyə Bakcell şirkətinin PR və Korporativ Kommunikasiyalar üzrə direktoru Süheylə Cəfərova bildirib. Bakcell şirkətinin dəstəyi ilə davamlı şəkildə həyata keçirilən bu layihə, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün bərabər hüquq və imkanların təmin edilməsi, asudə vaxtlarının səmərəli təşkili və cəmiyyətə tam inteqrasiya olunmalarının təmin edilməsinə yönəlib. Bu müddət ərzində "UAFA"nın Gəncə, Xaçmaz və Yasamal İcma Əsaslı Reabilitasiya (İƏR) mərkəzlərində təşkil edilmiş dram, rəqs, rəsm və yaradıcılıq dərnəklərindən 1000 nəfərdən artıq uşaq bəhrələnib. Layihə çərçivəsində təşkil olunan dərnəklər cəmiyyətdə sağlamlıq imkanları məhdud uşaqlara və əlilliyə qarşı münasibəti dəyişir və bu uşaqların cəmiyyətə tam inteqrasiya olunmalarının təmin edilməsinə kömək edir.

# AzerTelecom Davosda Dünya İqtisadi Forumunda təmsil olunub




***Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral internet provayderi AzerTelecom şirkətinin nümayəndə heyəti İsveçrənin Davos şəhərində 21-24 yanvar tarixlərində keçirilmiş Dünya İqtisadi Forumunda iştirak edib. Şirkətin baş direktoru Fuad Allahverdiyev və strategiya üzrə müşaviri Azər Bayramov Davos Forumu çərçivəsində keçirilmiş "Caspian Week 2020" konfransı və digər əlaqəli tədbirlərdə Azərbaycanın rəqəmsal mərkəzə çevrilməsi üçün icra edilən "Azerbaijan Digital Hub" proqramı və proqramın tərkib hissəsi olan "Transxəzər Fiber-Optik Kabel Xətti" layihəsini təqdim ediblər.***

Qlobal liderlər, nüfuzlu ekspertlər, iri şirkət rəhbərlərinin iştirak etdiyi və Xəzər regionu ilə dünyanın digər regionları arasında əlaqələrin daha da inkişaf etdirilməsi, bu regionda innovasiyaların tətbiqi məsələlərinin müzakirə olunduğu "Caspian Week 2020" konfransında ölkəmizin rəqəmsal mərkəzə çevrilməsi imkanları və strateji əhəmiyyət daşıyan Xəzərin dibi ilə fiber-optik kabel xətlərinin çəkilməsi layihəsi müzakirə edilib.

AzerTelecom şirkətinin strategiya üzrə müşaviri Azər Bayramov "Qlobal bazarlara çıxış: Böyük Xəzər regionunun yeni tranzit imkanları" panelində çıxışında layihənin regional əhəmiyyətini qeyd edib. Bildirilib ki, fiber-optik kabel xətti Azərbaycan-Qazaxıstan və Azərbaycan-Türkmənistan istiqamətlərindən ibarət olmaqla Asiya qitəsi ölkələrinin data tranzitinə olan ehtiyacının qarşılanmasına mühüm töhfə verəcək. Transxəzər Fiber-Optik Kabel xətti Avropa ilə Asiya arasında Azərbaycandan keçməklə Rəqəmsal İpək Yolunu (Digital Silk Way) formalaşdıracaq və Avrasiya regionunda mövcud marşrutlar arasında ən optimal, ən qısa və məlumat ötürülməsində gecikmələrin az olduğu bir marşrut olacaq. Tədbirdə bu strateji əhəmiyyətli sualtı kabel xətlərinin texniki imkanları vurğulanıb, sonda layihə ilə bağlı suallar cavablandırılıb.

AzerTelecom "Digital Hub" proqramı və onun tərkib hissəsi olan iri infrastruktur layihələrini gələcəkdə də Davos platformasında təqdim edəcək. AzerTelecom Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" şirkətinin törəmə müəssisəsidir. AzerTelecom şaxələnmiş şəbəkə vasitəsilə Azərbaycanı beynəlxalq internet şəbəkəsi ilə birləşdirir. Şirkət telekommunikasiya sektorunda yerli və xarici şirkətlərə müxtəlif qabaqcıl xidmətlər təqdim edir.



## Gücümüz ancaq oturub, zır-zır ağlamağa catır

İLHAM

***Hər bir yenilik özü ilə müəyyən problemlər gətirir. Bəzən bu problemlər o dərəcədə ağır və narahatedici xarakter daşıyır ki, ilk baxışdan, müsbət hal kimi dəyərləndirilən yenilik öz aktuallığını itirir və cəmiyyətlər üçün arzolunmaz bəla mənbəyinə çevrilir. Elə götürək yaşadığımız internet əsrində internetin tuğyan etməsini və bunun fonunda yaşanan hadisələri. Bu başdan, birmənalı şəkildə demək olar ki, nə qədər əlləm-qəlləm əməllər, cinayətlər, soyğunçuluq, talançılıq və digər acı xarakterli yazışmalar, video - paylaşmalar, fotofaktlar desən, sosial şəbəkələrdə görmək, oxumaq və ya seyr etmək olar.***

O gün TV-lərin birində işləyən aparıcı xanım utanıb-çəkinmədən, ən azı, abır-həya etmədən, sosial şəbəkədə sevgililərindən bəhs edib, onlara olan münasibətindən video paylaşma edirdi. Xalq artisti adını daşıyan Aygün Kazımova deyir ki, ona ərəb şahzadələrindən biri 1 milyon ABŞ dolları təklif edib, filan-filan məsələdə əməkdaşlıq etməyə görə və bu da guya puldan (bax ha, puldan... inanan daşa dönsün) imtina edib. Parlament seçkilərinin təbliğat-təşviqat kampaniyasına start verilən kimi deputatlığa namizəd olan gözəl-göyçək bir xanım "facebook"-da uzanılı formada bərq vuran baldırını nümayiş etdirib, onu sevənlərdən dəstək istəyirdi. Bu cüvənazan elə fikirləşib ki, bu yolla diqqət mərkəzinə çevrilə biləcək. Həm də, düşünüb ki, necə ola bilər ki, tamada, aşpaz, zurna calan, bir sözlə, dədəsindən narazı, anasından incik, sevgilisinə qəzəbli olanlar deputatlığa namizəd ola bilir, arxasında pullu-paralı "mujik" olan bir canalan deputatlığa namizəd olmasın? Afaq Aslan adlı və soyadlı bir mütrüb isə, lap özünü çöldən-çölə qoyub. Hərftə səkkiz-mən doqquz "instaqram"da və ya "facebook"-da lüt-üryan olub, dəyərsiz lüt bədənini nümayiş etdirir. Bu mütrüb də, baldırını nümayiş etdirən cüvənazan kimi fikirləşir ki, guya bu cür modelyerlik etməklə, özünə "kliyent" toplaya biləcək... yazıqlar olsun! El məsəlidir, "namusunu satmaqla, varlanmaq olmaz".

Sosial şəbəkələrdə toya, nişana və bəzən də yas məclislərinə dəvətlərə də rast gəlmək olur. Deyəsən, belə getsə, bir azdan xərc-xəracat çəkib, dəvətnamə yazdırmağa və bu dəvətnamələri dost-tanışa çatdırmaq əziyyətinə ehtiyac olmayacaq. "Facebook"-da elan veriləcək ki, ay qohum-əqrəba və ya dostlar, tanışlar filan vaxt, filan şadlıq evində övladıma şənlik quracam, 50-dən, 100-dən götürüb, gəlin ora. Elə bu kimi rüsvayçı faktların mövcudluğuna əsaslanaraq, bir sıra suallara cavab tapmaq olar: niyə bəzi kateqoriyadan olan insanların düşüncəsində və təfəkküründə sapmalar olur? Və yaxud müasir dövrün tələbləridir deyib, uşaqlar valideynlərinin üzünə ağ olur, mübahisələrə girir, iddialı və hikkəli tələblər irəli sürürlər. Qızlar oğlanlar kimi geyinməyə, rəqslər etməyə, saçlarını qırxdırmağa, oğlanlar isə qızlarsayağı qaşlarını almağa, üz-gözlərinə ənlik-kirşan çəkməyə daha çox maraq göstərirlər. Bu yerdə Aşıq Abbas Tufarqanlının bir bəndi yadıma düşdü:

Ay həzərat, bir zamana gəlibdir,
Ala qarğa şux tərlanı bəyənməz.
Oğullar atanı, qızlar ananı,
Gəlinlər də qaynananı bəyənməz.

Təəssüf ki, baş verən reallıqlar ondan ibarətdir ki, bu kimi adət-ənənələrə və əxlaqi dəyərlərə zidd olan hallara qarşı mübarizə də aparılmır. Ağsaqqal öz ağsaqqal statusundan istifadə edib, gənclərə öyüd-nəsihət verməyə xəsislik edir, ziyalılar, elm adamları da susmağa üstünlük verirlər. Sanki belə də olmalıdır.

Bir sözlə, internet deyilən, başıbəlalı virus yaman yerdə bizi haqlayıb. Nə edək, necə edək, sualı ətrafında baş sındırsaq da, ağrılı problemdən çıxış yolu da görünmür. Gücümüz ancaq oturub, zır-zır ağlamağa çatır. Deyilənə görə, ağlamaq da tibbi nöqteyi-nəzərdən müalicə vasitəsi deməkdir. Bu baxımdan, sosial şəbəkələrdə tüğyan edən biabırçılıqlardan kim narazı və narahatdırsa, bir küncə çəkilsin və zır-zır ağlasın. Bu yolla qəlbi sakitləşər, infarkt olmaq, hansısa xəstəliyə tutulmaqdan xilas olar.

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

Son səhifə

28 yanvar

## Koronavirus bütün Avropanı təşvişə salıb



*Avropa İttifaqı məkanının beynəlxalq hava limanlarında bu ölkələrə gələn, xüsusilə də Asiyadan daxil olan sərnişinlər üzərində təhlükəli koronavirusa yoluxma əlamətləri baxımından nəzarət gücləndirilib. AZƏRTAC xəbər verir ki, müvafiq tədbirlər Aİ-yə üzv olan ölkələrin demək olar, bütün beynəlxalq aeroportlarında qəbul edilib.*

Aeroportların əksəriyyətində gecə-gündüz tibb kabinetləri fəaliyyət göstərir, sanitar nəzarəti fasiləsiz həyata keçirilir. Avropa Komissiyası hava limanına enən təyyarələrin göyərtəsində koronavirus infeksiyası əlamətləri olan hər hansı sərnişinin aşkar ediləcəyi hallar üçün təcili planın işlənib hazırlanması məqsədilə təcili göstəriş verib.

## Kobi Brayantın həlak olduğu helikopter qəzasının yeni detalları açıqlandı



*Xəbər verdiyimiz kimi, "Los-Anceles Leykers" basketbol klubunun ulduzu Kobi Brayant Kaliforniyada helikopter qəzasında həlak olub. Hakimiyyət orqanlarının məlumatına görə, basketbolçunun 13 yaşlı qızı Cianna da ölənlər arasında olub. Federal Aviasiya Administrasiyası nümayəndələrinin məlumatına görə, "Sikorsky S-76B" helikopteri bazar günü səhər Los-Ancelesin mərkəzindən təxminən 45 kilometr yaxınlıqda yerləşən Kalabasas şəhərində naməlum şəraitdə qəzaya uğrayıb.*

Helikopter Con Ueyn adına hava limanından Sakit okean vaxtı ilə saat 09:06-da qalxıb. "Los-Anceles" qəzetinin yaydığı məlumata görə, qəza saat 10 radələrində Las-Virqenes küçəsi yaxınlığında baş verib. Los-Anceles dairəsinin şerifi əvvəlcə göyərtədə 5 nəfərin olduğunu, onlardan heç birinin sağ qalmadığını bəyan edib. Lakin sonradan o, qəza nəticəsində 9 nəfərin həlak olduğunu bildirib.



## Türkiyədə zəlzələ zamanı dağıntılar altından son cəsəd çıxarılıb

Türkiyənin Elazığ şəhərində baş vermiş 6,8 bal gücündə zəlzələ zamanı dağıntılar altından son cəsəd çıxarılıb. Bu barədə ölkənin Fövqəladə Halların İdarə Olunması Agentliyinin (AFAD) rəhbəri Mehmet Güllüoğlu bildirib. Beləliklə təbii fəlakət zamanı həlak olanların sayı 41-ə çatıb. Dağıntılar altından 45 nəfər sağ çıxarılıb. Xatırladaq ki, yanvarın 24-də Türkiyənin Elazığ şəhərində 6,8 bal gücündə zəlzələ baş verib.

## Sergen Yalçın "Beşiktaş"ın baş məşqçisi oldu



Abdullah Avcı ilə yollarını ayıran Türkiyənin "Beşiktaş" futbol klubunun yeni baş məşqçisi müəyyənləşib. "NTV Spor"un məlumatında deyilir ki, klub rəhbərliyi 47 yaşlı mütəxəssislə 1,5 illik müqavilə imzalayıb.

Qeyd edək ki, "Beşiktaş"ın yetirməsi olan Sergen Yalçın klubun əfsanəvi futbolçuları arasında yer alıb. O, on il formasını geyindiyi bu komandada 309 oyunda 87 qol vurub. Cari mövsüm Superliqanın digər təmsilçisi "Yeni Malatyaspor"u çalışdırmış S.Yalçın bir neçə gün əvvəl vəzifəsindən istefa verib. Xatırladaq ki, ölkə çempionatında son beş oyunun dördündə məğlub olan "Beşiktaş" 30 xalla yeddinci pillədə qərarlaşıb.

## Ukraynada qripdən daha bir nəfər öldü

Ukraynanın Rivne vilayətində 50 yaşlı kişi qrip və kəskin respirator virus infeksiyasından ölüb. Bu barədə AZƏRTAC-a Ukrayna Səhiyyə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Məlumata görə, A (H1N1) virusuna yoluxan xəstə ağır halda xəstəxanaya yerləşdirilib. Bu hadisə yeni epidemioloji mövsümdə Rivne vilayətində qripdən ilk ölüm faktıdır. Yeni epidemioloji mövsümdə Ukraynada qripdən ölənlərin ümumi sayı isə artıq 13 nəfərə çatıb. Təkcə ötən həftə Ukraynada qripə yoluxma halları 48 faiz artıb. Bunların da 70 faizdən çoxu uşaqdır.



## ABŞ-ın İraqdakı səfirliyi raket atəşinə tutulub, 3 nəfər yaralanıb

ABŞ-ın İraqdakı səfirliyinin raket atəşinə tutulması nəticəsində 3 nəfər yaralanıb. Bu açıqlama ilə İraq Prezidenti Adil Əbdülmehdi çıxış edib. O bildirib ki, raket zərbələrindən sonra ABŞ-ın Bağdaddakı hərbi bazasından hadisə baş verən yerə helikopter göndərilib. Səfirliyin həyətinə enən helikopter yaralıları götürərək şəhra xəstəxanasına çatdırıb. Səfirliyin yeməkxanasında isə yanğın baş verib. Prezident diqqətə çatdırıb ki, belə mənfi hallar İraqda sabitliyin yaradılmasına imkan vermir.



**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600